15 dekabr 2021 №92 (1869)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Regionda kommunikasiyaların açılması Brüsseldə müzakirə olunub

Prezident İlham Əliyev Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün dekabrın 13-də Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gedib.



Dekabrın 14-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev ilə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında görüş olub. Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin uğurla inkişaf etdiyi qeyd olunub. Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində dəstəyi vurğulanıb.

Eyni zamanda Avropa İttifaqı, Azərbaycan və Ermənistan arasında üçtərəfli görüşə dair fikir mübadiləsi aparılıb. Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası, kommunikasiyaların açılması, humanitar xarakterli məsələlər müzakirə olunub.

Dekabrın 14-də Prezident İlham Əliyev Brüsseldə NATO-nun Baş katibi Yens Stoltenberq ilə görüşüb. Alyansın mənzil-qərargahındakı görüşdən sonra birgə mətbuat konfransı keçirilib.

"NATO normallaşma istiqamətində bütün səyləri və Azərbaycan və Ermənistan arasında dialoqu dəstəkləyir. Prezident İlham Əliyevlə də bu məsələni müzakirə etdik. Həll olunmamış bütün məsələlər diplomatik vasitələrlə həll olunmalıdır", – deyə Baş katib vurğulayıb.

Azərbaycan Prezidenti qeyd edib ki, nəqliyyat inteqrasiyası region üçün böyük imkandır. Zəngəzur dəhlizi yalnız Azərbaycanın Naxçıvana giriş əldə etməsi üçün deyil. Həmçinin Ermənistan üçün önəmlidir ki, Naxçıvan vasitəsilə İrana və Azərbaycan ərazisi vasitəsilə Rusiyaya dəmiryolu xətti əlaqəsi qursun.

Prezident diqqətə çatdırıb ki, regionda kommunikasiyaların açılması 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda qeyd edilib: "Bu mərhələdə biz Azərbaycandan Ermənistan vasitəsilə Naxçıvana gedən dəmiryolu xəttinin tikilməsi ilə bağlı razılığa gəlmişik. Həmçinin avtomobil yolunun inşası ilə bağlı razılıq əldə etmişik. Lakin avtomobil yolunun istiqaməti hələ dəqiqləşməyib. Bu, gələcək müzakirələrin predmetidir. Biz bu axşam üçtərəfli görüşdə mütləq bu məsələni müzakirə edəcəyik. Zəngəzur dəhlizindən istifadə qaydalarına gəlincə, bu, Laçın dəhlizindəki kimi olmalıdır. Bu gün Laçın dəhlizində gömrük postu yoxdur. Zəngəzur dəhlizində də gömrük postu olmamalıdır. Ya hər iki tərəfdə gömrük postu olmur, ya da hər iki tərəfdə gömrük postu qurulur".

## Mədəniyyət xalqları, ölkələri birləşdirən ən güclü vasitədir

Mədəniyyət naziri Anar Kərimov İspaniyanın vasitəçilik və mədəniyyətlərarası dialoq üzrə xüsusi səfiri Ramon Blekua ilə görüşüb.

Anar Kərimov ölkəmizin irəli sürdüyü "Mədəniyyət naminə sülh" qlobal kampaniyası haqqında qonağa məlumat verib.

səh. 2




səh. 7

# "Nizami Gəncəvini oxuyaq"

### TÜRKSOY-un kitab-albomunun növbəti təqdimatı Qazaxıstanda keçirilib

Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən Türk dünyası rəssamlarının Nizaminin əsərlərinə çəkdiyi rəsm əsərləri və miniatürlərdən ibarət ingilis dilində "Nizamini oxuyaq" kitab-albomu nəşr edilib.

"Nizamini oxuyaq" kitab-albomunun və eyniadlı fotosərginin ilk təqdimatı noyabrın 22-də Bakıda, dekabrın 8-də isə Qırğızıstanın paytaxtı Bişkekdə keçirilmişdi.

Dekabrın 14-də Nur-Sultan şəhərində, Qazaxıstanın Birinci Prezidenti – Elbası Kitabxanasının muzeyində TÜRKSOY-un təşkilatçılığı ilə art-albomun təqdimatı və sərginin açılışı olub.

Kitab-alboma Nizaminin əsərlərinin motivləri üzrə tanınmış rəssamların əsərlərinin 100-dən artıq fotoreproduksiyası daxil edilib və şairin poemalarından misralar verilib.

Tədbirdə çıxış edən kitabxananın direktoru Bakıtcan Temirbolat TÜRKSOY tərəfindən Türk dünyasının böyük mütəfəkkiri Nizami Gəncəvinin yubileyinə həsr olunmuş art-albomun hazırlanmasını təqdir edərək nəşrin əhəmiyyətini vurğulayıb.




TÜRKSOY-un Baş katibi Düsen Kaseinov bildirib ki, "Nizamini oxuyaq" kitab-albomunda Türk dünyası rəssamlarının Nizaminin əsərlərinə çəkdikləri miniatürlər yer alır. Kitab-albomdakı hər bir rəsmin öz tarixi var. Baş katib Türkiyənin Ədirnə, Təkirdağ, Bursa və Antalya şəhərlərində Türk dünyası sənətçilərinin iştirakı ilə Nizami Gəncəvinin yubileyinə həsr olunmuş konsert proqramlarının uğurla keçirildiyini də diqqətə çatdırıb.

davamı səh. 2-də

## İşğaldan azad edilmiş ərazilərdə mədəni irs abidələrinin bərpası

Dekabrın 13-də Heydər Əliyev Mərkəzində "İşğaldan azad edilmiş ərazilərdə mədəni irs abidələrinin bərpası üzrə layihələr: hədəflər, çağırışlar, xüsusiyyətlər, perspektivlər" mövzusunda dəyirmi masa keçirilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov bildirib ki, otuz ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan ərazilərimiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edildikdən sonra bu torpaqlarda quruculuq-bərpa işləri başlanıb. Bölgədə infrastruktur layihələri ilə yanaşı, tarixi və mədəniyyət abidələrinin inventarlaşdırılması, mühafizəsi, o cümlədən bərpası istiqamətində genişmiqyaslı işlər həyata keçirilir.

Diqqətə çatdırılıb ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də Fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan edib. Bununla da Heydər Əliyev Fondu bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Fondun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunub. Hazırda bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilib.



"Heydər Əliyev Fondunun işğaldan azad olunan ərazilər üzrə layihəsinin icrası üçün xüsusi işçi qrupu yaradılıb və bərpa olunacaq abidələrin öyrənilməsi məqsədilə ilkin qiymətləndirmə aparılıb. Bərpa işləri dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə edir. Abidələrin yenidən qurulması zamanı onların ilkin, yəni autentik simasının pozulmaması prinsipi əsas götürülür. Bununla bağlı beynəlxalq təcrübə öyrənilir və abidələrin bərpası, konservasiyası və yenidən qurulması üzrə işlərdə, həmçinin mütərəqqi üsullar tətbiq edilir", – deyə Anar Ələkbərov bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, Heydər Əliyev Fondu Qarabağda yalnız bərpa layihələri həyata keçirmir. Bölgədə aparılan quruculuq işlərinə töhfə vermək məqsədilə yeni dini və mədəniyyət obyektlərinin inşası da nəzərdə tutulur.

Fond ötən müddət ərzində artıq bir sıra mədəniyyət abidələrinin bərpasını başa çatdırıb. Bu ilin avqust ayında Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işləri yekunlaşıb. Kompleksdə işlər Heydər Əliyev Fondu tərəfindən 2021-ci ilin mart ayından başlayıb və abidə tarixi görkəminə uyğun olaraq bərpa edilib. Həmçinin böyük Azərbaycan şairi Molla Pənah Vaqifin büstü, dahi bəstəkar Üzeyir Hacıbəylinin heykəli yenidən Şuşa şəhərində ucaldılıb.

davamı səh. 4-də

## Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitənin sessiyası

Dekabrın 13-də Parisdə, UNESCO-nun qərargahında qurumun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 16-cı sessiyası işə başlayıb. Onlayn formatda keçirilən sessiyaya UNESCO üzrə Şri-Lanka Milli Komissiyasının baş katibi Punçi Nilame Meqasvate sədrlik edir.

Hökumətlərarası Komitənin 16-cı sessiyasında ölkəmizi UNESCO yanında daimi nümayəndə, səfir Elman Abdullayev təmsil edir. Qeyd edək ki, Azərbaycan hazırda UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 24 üzvündən biridir. İclasa dünyanın müxtəlif ölkələrindən 900-ə qədər iştirakçı qeydiyyatdan keçib.

Komitənin 16-cı sessiyası çərçivəsində aidiyyəti siyahılara daxil edilməsi üçün üzv dövlətlər tərəfindən namizədliyi təqdim edilmiş elementlərə baxılacaq. Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına salınmaq üçün 48 element, Təcili qorunmağa ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilmək üçün 6 element, eləcə də yaxşı mühafizə təcrübələrinin reyestrinə daxil edilmək üçün 5 təklif və 100 min dollar




miqdarında 3 beynəlxalq yardım sorğusu sessiyanın gündəliyində yer alıb.

davamı səh. 2-də

## Paytaxtın Şağan qəsəbəsində yeni muzey

Paytaxtın Xəzər rayonunda mədəniyyət ocaqlarının sırasına daha biri əlavə olundu. Dekabrın 7-də Şağan qəsəbəsində "Xəzər" Muzey Mərkəzinin açılışı keçirildi.

Həmin gün şağanlılar üçün ikiqat sevincli idi. Çünki mərkəzin açılışı ilə bərabər Məhəmməd Əmin Rəsulzadə nəslinin layiqli davamçılarından Əməkdar rəssam Rais Rəsulzadənin 75 illik yubileyinə həsr olunmuş sərgi də keçirilirdi.



Tədbirdə yubilyarın özü, Xalq rəssamları Xanlar Əhmədov, Qəyyur Yunus, Xalq artistləri Vamiq Məmmədəliyev, Teyyub Aslanov, Əməkdar artist Mirnazim Əsədullayev, Əməkdar incəsənət xadimi Cahangir Səlimxanov, Dünya Rəssamlıq Akademiyasının həqiqi üzvü Səmədağa Cəfərov, rayon rəsmiləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Mərasimə videobağlantı ilə qoşulan Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı Ömər Eldarov əlamətdar hadisə ilə əlaqədar təbriklərini çatdırdı, mərkəzə fəaliyyətində uğurlar arzuladı.

davamı səh. 4-də

Tbilisidə Rəşid Behbudova həsr olunmuş konsert



səh. 2

Beynəlxalq Muğam Mərkəzi ilə Macarıstan Mədəni İrs Evi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb

səh. 5



Şəhid qəhrəmanın fotolarından ibarət sərgi

səh. 6

№92 (1869)
15 dekabr 2021
www.medeniyyet.az

# Dövlət Pantomim Teatrının kollektivi ilə görüş

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev dekabrın 14-də Azərbaycan Dövlət Pantomim Teatrının kollektivi ilə görüşüb. Görüşdə Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova və Teatr sektorunun müdiri Könül Cəfərova da iştirak ediblər.

Görüş zamanı teatrın repertuarı, yaradıcı mühit, kollektivin pandemiya və postpandemiya dövründə fəaliyyəti müzakirə olunub, teatrın binasına baxış keçirilib. Nazirin birinci müavini teatrın texniki təchizat problemləri və binanın vəziyyəti ilə yerində tanış olub.




Nazirlik rəsmiləri Azərbaycan Dövlət Pantomim Teatrının milli teatr prosesində rolundan danışıb, onun əhəmiyyətini qeyd edib, yaradıcılıq fəaliyyətini qiymətləndirərək kollektivə uğurlar arzulayıblar. Bundan sonra da kollektivə zəruri dəstəyin göstəriləcəyi vurğulanıb.

# "Mədəni yenilənmə" layihəsi davam edir




Mədəniyyət Nazirliyi və YARAT Müasir İncəsənət Mərkəzi 2021-ci ilin oktyabr ayından etibarən "Mədəni yenilənmə" adlı müştərək layihə həyata keçirir.

Layihənin məqsədi hazırda Azərbaycanın hüdudlarından kənarda yaşayıb-yaradan mədəniyyət və incəsənət xadimlərini, görkəmli simaları çağdaş nəslə tanıtdırmaq, onların doğma vətənlərində kəsb etdiyi əhəmiyyəti vurğulamaq, fəaliyyət təcrübəsi ilə peşəkar bilgilərinin mübadiləsini təmin etmək, pandemiyanın doğurduğu məlum çətin şəraitdə onlara yaradıcı ünsiyyət imkanı yaratmaq, eləcə də sənətsevərlərin mənəvi ehtiyacını təmin etməkdir.

15-17 dekabr tarixində layihənin növbəti mərhələsində respublikanın Xalq artisti, bəstəkar və pedaqoq, Moskva Dövlət Konservatoriyasının professoru Fərəc Qarayev, musiqişünas, fəlsəfə elmləri doktoru Rauf Fərhadov və pianoçu, pedaqoq Samir Mirzəyev ilə görüşlər keçiriləcək.

Dekabrın 15-də və 17-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində professor Fərəc Qarayevin iştirakı ilə onun yaradıcılığına və XXI əsrdə Moskva bəstəkarlarının musiqisinə həsr edilmiş seminar-diskussiyalar, 16 dekabrda isə musiqişünas, fəlsəfə elmləri doktoru Rauf Fərhadovun iştirakı ilə "Postmodernizmdən total sintezə doğru " mövzusunda mühazirə-diskussiya olacaq.

15 dekabrda YARAT-ın səhnəsində "SoNoR" ansamblı haqqında kitabın təqdimat mərasimi, 17 dekabrda isə həmin səhnədə Antalya Dövlət Konservatoriyasının dosenti Samir Mirzəyevin "Sinesteziya fenomeni və Skryabin" mövzusunda mühazirəsi keçiriləcək.

Layihə çərçivəsində Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Nurlanmış gecə" kamera və "Nostalji" simfonik konsertləri də təşkil ediləcək.

# Yeni qanunda media sahəsində çalışanlar üçün güzəşt və imtiyazlar da olacaq

Media sahəsində fəaliyyət göstərən şəxslər üçün güzəştlər və imtiyazlar müəyyənləşir. Bu, dekabrın 14-də Milli Məclisin iclasında birinci oxunuşda müzakirəyə çıxarılan "Media haqqında" qanun layihəsində əksini tapıb.

Layihəyə əsasən, Media Reyestrinə daxil edilmiş şəxslər üçün aşağıdakı güzəşt və imtiyazlar müəyyənləşdirilə bilər: media subyektlərinin işçilərinin və jurnalistlərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilən təlimlərdə ödənişsiz və ya güzəştli əsaslarla iştirakı; maliyyə xarakterli güzəşt və imtiyazlardan (güzəştli kreditlərdən yararlanmaq daxil olmaqla) istifadə; sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması ilə bağlı güzəştlərdən yararlanma.

Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən jurnalist vəsiqəsi veriləcək. Jurnalist vəsiqəsinin forması, onun verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək. Bu, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən xarici jurnalistlərə şamil edilmir. Xarici jurnalistlər Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərmək üçün əvvəlcədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət etməlidir.

Layihəyə əsasən, aşağıdakı şəxslər media subyektinin təsisçisi (iştirakçısı) ola bilməzlər: ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilmiş şəxslər; məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər; məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslər; siyasi partiyalar (çap mediası istisna olmaqla); dini qurumlar (çap mediası istisna olmaqla).

Qanun layihəsi 9 fəsil 78 maddədən ibarətdir.

Layihə səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

# Mədəniyyət xalqları, ölkələri birləşdirən ən güclü vasitədir

## İspaniya diplomatı "Mədəniyyət naminə sülh" kampaniyasının əhəmiyyətini vurğulayıb

Mədəniyyət naziri Anar Kərimov dekabrın 14-də İspaniyanın vasitəçilik və mədəniyyətlərarası dialoq üzrə xüsusi səfiri Ramon Blekua ilə görüşüb.

Qonağı salamlayan nazir ölkələrimiz arasında mədəni əməkdaşlığın daha da genişləndirilməsi üçün əlverişli imkanların olduğunu diqqətə çatdırıb. Birgə fəaliyyətin əhəmiyyətini qeyd edən Anar Kərimov Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən "Bakı Prosesi" təşəbbüsü çərçivəsində 2011-ci ildən ənənəvi keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində qarşılıqlı əməkdaşlığı bir daha vurğulayıb.

Anar Kərimov ölkəmizin irəli sürdüyü "Mədəniyyət naminə sülh" ("Peace4Culture") qlobal kampaniyası haqqında da söz açıb. Bildirib ki, bu kampaniya mədəni irsin qorunması, dinc və dayanıqlı sülhsevər cəmiyyətlərin qurulması və beynəlxalq sülh sistemlərinin gücləndirilməsi, eləcə də sülhün əldə olunmasında mədəniyyətin rolu ilə yanaşı, mədəniyyətin inkişafında sülhün rolunun öyrənilməsi məqsədi daşıyır. Nazir səfir Ramon Blekuanı da bu qlobal çağırışa qoşulmağa dəvət edib.



Səmimi qəbula görə təşəkkürünü bildirən Ramon Blekua "Mədəniyyət naminə sülh" qlobal çağırışına dərin marağını ifadə edib. Qonaq layihə çərçivəsində əməkdaşlığın mühüm olduğunu və Azərbaycanın zəngin mədəni irsinin qorunmasının vacibliyini bildirib. Qeyd edib ki, mədəniyyət xalqları, ölkələri, ümumiyyətlə, bəşəriyyəti birləşdirən ən güclü vasitədir.

# Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitənin sessiyası

*əvvəli səh. 1-də*

Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına salınmaq üçün təklif edilən nümunələr sırasında Türkiyənin "Hüsn-i Hat – ənənəvi İslam kalliqrafiya sənəti", Türkmənistanın "Dütarın düzəldilməsi sənəti və oxuma ilə birlikdə ənənəvi musiqi ifaçılığı", Özbəkistanın "Baxşi (aşıq) sənəti" kimi nominasiya faylları var.

Qeyd edək ki, hazırda Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısında 131 ölkənin ümumilikdə 584 elementi, o cümlədən Azərbaycanın 13 qeyri-maddi mədəni irs nümunəsi var.

Həmçinin sessiyada Latın Amerikası və Karib hövzəsi ölkələrinin "Qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiya"nın həyata keçirilməsinə dair dövri hesabatları, Qeyri-Maddi Mədəni İrs – QHT Forumunun hesabatı dinləniləcək və 2003-cü ildə qəbul olunmuş bu Konvensiyanın siyahıya salma mexanizmlərində islahatlar kimi məsələlərə baxılacaq.

Hökumətlərarası Komitənin 16-cı sessiyası dekabrın 18-dək davam edəcək.

### Davamlı inkişaf üçün təhsil əsas prioritet olaraq qalmalıdır

Azərbaycan UNESCO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" 2003-cü il Konvensiyası və mədəniyyətlə bağlı digər konvensiyaları, xüsusilə də "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 1954-cü il Konvensiyası və onun iki protokolu arasında sinerjinin gücləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirləri alqışlayır. Hesab edirik ki, növbəti ikiillikdə bu iş davam etdiriləli və gücləndirilməlidir.

Bu fikri UNESCO yanında daimi nümayəndə, səfir Elman Abdullayev Hökumətlərarası Komitənin 16-cı sessiyasında çıxışı zamanı deyib.

O bildirib ki, COVİD-19 pandemiyasına baxmayaraq 2003-cü il Konvensiyasının katibliyi və Mədəniyyət sektorunun öz işini davam etdirməK istiqamətində səylərini ölkəmiz alqışlayır. Hökumətlərarası Komitənin əsas mexanizmlərinin, əməliyyat fəaliyyətlərinin, eləcə də proqramlarının dəstəklənməsində katibliyin həyata keçirdiyi tədbirlərdən məmnunluq ifadə edilib.

Diqqətə çatdırılıb ki, Azərbaycan mədəniyyətin mühafizəsi və mədəni plüralizmin təşviqi üzrə UNESCO-nun fəaliyyətini gücləndirmək strategiyasının həyata keçirilməsinə uyğun olaraq, fövqəladə hallarda, eləcə də silahlı münaqişələr və təbii fəlakətlər zamanı qeyri-maddi mədəni irsin mühafizəsi üzrə işin inkişafı sahəsində katibliyin əldə etdiyi tərəqqini təqdir edir. Azərbaycan



qeyri-maddi mədəni irs və təhsil sahəsində proqramın həyata keçirilməsində səyləri təqdirələyiq hesab edir, UNESCO-nun Təhsil sektorunun texniki və peşə təhsili və təlimi, Davamlı inkişaf üçün təhsil və Fövqəladə hallarda təhsil kimi xüsusi proqramları ilə daha çox əməkdaşlığa çağırır.

"Hesab edirik ki, potensialın gücləndirilməsi, fövqəladə hallarda qeyri-maddi mədəni irsin mühafizəsi, qeyri-maddi mədəni irs və davamlı inkişaf üçün təhsil növbəti illərdə də Katibliyin əsas prioritetləri olaraq qalmaqla yanaşı, qarşıdan gələn MONDİACULT konfransında mədəniyyət siyasətlərində qeyri-maddi mədəni irsin rolu və yeri möhkəmləndirilməlidir", – deyə E.Abdullayev bildirib.

# Tbilisidə Rəşid Behbudova həsr olunmuş konsert

Dekabrın 14-də Gürcüstanın paytaxtı Tbilisidə dünya şöhrətli sənətkar, Azərbaycan və SSRİ-nin Xalq artisti Rəşid Behbudovun (1915–1989) anadan olmasının 106-cı ildönümünə həsr edilmiş xatirə konserti təşkil olunub.

Tədbir Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Mərkəzinin təşkilatçılığı ilə Tbilisi Dövlət Konservatoriyasında reallaşıb.

Konsertin keçirilməsinə Gürcüstanın Mədəniyyət, İdman və Gənclər Nazirliyi, Azərbaycanın Gürcüstandakı Səfirliyi, SOCAR şirkəti dəstək göstəriblər.

Konservatoriyanın foyesində sənətkarın həyat və yaradıcılığını əks etdirən fotosərgi də təşkil edilib.

Konsert "Melita" rəqs qrupunun ifasında Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından rəqs ilə başlayıb. Rəşid Behbudov 1945-ci ildə bu operetta əsasında çəkilmiş eyniadlı filmdə baş rolu oynayıb.

Gürcüstanın tanınmış mədəniyyət xadimləri Gelodi Potsxişvili, Vaxtanq Qaçeçiladze çıxış edərək Rəşid Behbudov haqqında xatirələrini bölüşüb, yaradıcılığından söz açıblar.

Sonra konsertdə gürcü və azərbaycanlı solistlər – Zümrüd Əlizadə, Ərtoğrul Balayev, Natəvan Həsənova, Nərgiz Əliyeva, Hüseyn Əliyev, Tedo Qoridze, Surə Rüfət, Teymur Kazımov, Dilarə Kərimova, İamze Urumaşvili "Sənsiz", "Natəvana ithaf", "Sevgilim", "Bakı nəğməsi", "Ey Vətən" mahnılarını ifa ediblər.



Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gənclərə dəstək" layihəsinin gənc musiqiçiləri də konsertdə çıxış ediblər. Sonda Həzrət Əzizli Nərgiz Əliyevanın müşayiəti ilə "Yaşa, Azərbaycan" mahnısını ifa edib.

# "Nizami Gəncəvini oxuyaq"

*əvvəli səh. 1-də*

Düsen Kaseinov qeyd edib ki, dövrümüzdə Nizami Gəncəvinin əsərlərinin öyrənilməsi sərhədlərini əhəmiyyətli dərəcədə genişləndirərək, təkcə ədəbi-fəlsəfi əsərlər kimi deyil, həm də sosiologiya, dinşünaslıq, psixologiya, pedaqogika və politologiya baxımından da maraq doğurur. Humanist ideyalar, Nizaminin "Xəmsə"sində tərənnüm etdiyi bəşəri ideyalar, sosial bərabərlik, tolerantlıq bütün dünyada bir etalona çevrilib.

Baş katib Nizaminin yubiley ilində TÜRKSOY-un Rusiyada, Belarusda, Ukraynada, Polşada, Qırğızıstanda tədbirlər təşkil etdiyini, keçən il dahi qazax mütəfəkkiri Abay Kunanbayevin də yubileyinin geniş qeyd edildiyini bildirib. Diqqətə çatdırıb ki, Abay Kunanbayev Nizaminin əhəmiyyətli əsərlərindən olan "İskəndərnamə"ni qazax dilinə tərcümə edib. Abay Nizamini özünün "gözəl" müəllimi hesab edir və onun yaradıcılığına dərindən hörmət edirdi.



Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov bildirib ki, Nizami Gəncəvi bir fenomen olaraq təkcə Azərbaycan üçün yox, bütün Türk dünyası üçün bir işıq mənbəyi, bir örnəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edildiyini diqqətə çatdıran səfir bildirib ki, bu cür qərarlar Azərbaycan ədəbiyyatında, mədəniyyətində müstəsna xidmətləri olan şəxslərə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Diplomat qeyd edib ki, Nizaminin 880 illiyi dahi şairin yaradıcılıq irsinin qazax dilinə tərcümə edilməsi baxımından da mühüm bir zəmindir. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli yeni epoxada Nizami kimi klassiklərin yaradıcılığına yeni prizmadan baxışın əhəmiyyətini vurğulayıb. Bildirib ki, şairin yaradıcılığı öz dövründə olduğu kimi, üzərindən səkkiz əsrdən çox müddət keçsə də, şüurlara təsir göstərir, milli-mənəvi dəyərlərimizə söykəndiyi üçün Azərbaycan xalqının milli özünüdərki və özünəinamının inkişafı baxımından əhəmiyyətli rol oynayır.

Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdıralı və Qazaxıstan Parlamentinin deputatı, Qazaxıstan Azərbaycanlıları Assosiasiyasının sədri Əbülfəz Xamedov Nizaminin dünya ədəbiyyatına verdiyi misilsiz töhfələrdən bəhs edib, onun yaradıcılığının fəlsəfi aspektlərinə toxunublar.

"Nizami Gəncəvi" art-albomunun təqdimatı eyniadlı fotosərgiyə baxışla davam edib.

Tədbirdə TÜRKSOY-un nümayəndələri, diplomatlar, alimlər, dövlət və ictimai xadimlər iştirak ediblər.

# Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində yaşayır



Dekabrın 10-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 18-ci ildönümünə həsr olunan anım gecəsi keçirildi.

Gecədə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, nazir müavini Sevda Məmmədəliyeva, dövlət və yaradıcı qurumların rəhbər və məsul şəxsləri, mədəniyyət, incəsənət xadimləri və digər qonaqlar iştirak edirdi.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev bildirdi ki, ulu öndər Heydər Əliyevin əziz xatirəsi hər bir azərbaycanlının qəlbində dərin kök salıb: "Ümummilli lider həyatını xalqının, dövlətinin rifahına həsr etmişdi. Ulu öndər hələ Azərbaycan SSR Mərkəzi Komitəsinin Birinci katibi işlədiyi dövrdə ölkəmizin neft sənayesi, kənd təsərrüfatı, habelə ziyalı potensialı və digər sahələrin daha da inkişaf etməsi üçün böyük xidmətlər göstərmişdi. Tarix elə gətirdi ki, ulu öndər ikinci dəfə siyasi hakimiyyətə gəldi. Böyük dövlət xadimi ölkəmizin ağır günlərində xalqın tələbi ilə hakimiyyətə gəldi və respublikamızın düşdüyü çətin vəziyyətdən çıxarılması üçün çox böyük zəhmətlərə qatlandı. Ölkənin hərtərəfli inkişafı üçün mühüm islahatlar həyata keçirdi. Bu siyasətin nəticəsidir ki, bu gün Azərbaycan qüdrətli dövlətə çevrilib".

Muxtar Nağıyev söylədi ki, ulu öndərin ən böyük xidmətlərindən biri də Azərbaycan xalqını özündən sonra etibarlı əllərə ərməğan etməsidir: "Ulu öndər sağlığında qeyd etmişdi ki, bizim görə bilməyəcəyimiz işləri bizdən sonra gələnlər həyata keçirəcək. Bildirmişdi ki, mən İlham Əliyevə özüm qədər inanıram. İlham Əliyev 2003-cü ildə Prezident seçildikdən sonra Azərbaycan xalqına vəd etdiyi bütün sözləri həyata keçirdi. Onun rəhbərliyi ilə Ordumuz 44 günlük Vətən müharibəsində böyük Zəfər qazandı. Otuz ilə yaxın həsrətini çəkdiyimiz Qarabağ işğaldan azad edildi. İlham Əliyev Vətən müharibəsinə əsl sərkərdə kimi rəhbərlik etdi. Eyni zamanda düşmənlə və onun havadarları ilə informasiya müharibəsi apardı. Bir ildən artıqdır ki, torpaqlarımız işğaldan azad edilib. Bu gün azad olunan torpaqlarda geniş quruculuq işləri aparılır. Bu işlərin nəticəsində həmvətənlərimiz yaxın zamanlarda öz dədə-baba yurdularına qayıdacaq".

YAP-ın Mərkəzi Aparatı Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirdi ki, ümummilli lider Heydər Əliyevin cismani yoxluğundan 18 il ötür: "Ulu öndər Azərbaycan tarixinin yetişdirdiyi ən nadir şəxsiyyətlərdən biridir. Bu gün Azərbaycanın hansı sahəsinə baxsaq, Heydər Əliyevin izini görərik. Heydər Əliyev haqqında danışarkən ilk növbədə onun Azərbaycan xalqına bağlılığı göz önünə gəlir. Azərbaycanın tərəqqisi və intibahı bilavasitə ulu öndərin adı ilə bağlıdır.



O özündən sonra Azərbaycan xalqını parlaq Qələbələrə daşıyan İlham Əliyev kimi lider yetişdirdi. Bu gün ölkəmiz regionun ən böyük iqtisadiyyatına və Ordusuna sahib dövlətdir. İnanıram ki, Azərbaycanın gələcəyi bundan sonra da möhtəşəm olacaq".

Çıxışlardan sonra söz musiqiyə verildi. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (bədii rəhbər və baş dirijor – Xalq artisti Rauf Abdullayev) ilk olaraq Qara Qarayevin "Leyli və Məcnun" simfonik poemasını ifa etdi. Daha sonra orkestrin ifasında Soltan Hacıbəyovun "Karvan" simfonik lövhələri və Fikrət Əmirovun "Gülüstan Bayatı-Şiraz" simfonik muğamı səsləndi. Xatirə gecəsinə Qara Qarayevin "İldırımlı yollarla" baletindən "Final" ilə yekun vuruldu.

### Ulu öndərin məzarı ziyarət edilib

Dekabrın 12-də – ulu öndərin vəfatının 18-ci ildönümündə dövlət rəsmiləri, ictimaiyyət nümayəndələri Fəxri xiyabana gələrək Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anıblar.

Mədəniyyət Nazirliyinin rəhbərliyi və tanınmış mədəniyyət xadimləri də görkəmli dövlət xadimi, dahi siyasətçi, mədəniyyətimizin böyük himayədarı Heydər Əliyevin məzarını ziyarət ediblər.

Mədəniyyət naziri Anar Kərimov, nazirin birinci müavinləri Vaqif Əliyev, Elnur Əliyev, nazirlik aparatının əməkdaşları, struktur bölmələrin və yaradıcılıq təşkilatlarının rəhbərləri Fəxri xiyabanda Heydər Əliyevin məzarüstü abidəsinin önünə gül dəstələri qoyub, ulu öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ümummilli liderin ömür-gün yoldaşı, Azərbaycan səhiyyəsinin inkişafında silinməz iz qoyan görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri qoyulub.

# Milli Kitabxananın virtual sərgisi

Dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 18-ci ildönümü ilə əlaqədar elm və mədəniyyət ocaqlarında anım tədbirləri keçirilib. Dekabrın 10-da Azərbaycan Milli Kitabxanasında da anım mərasimi təşkil olunub.

Kitabxananın direktoru, professor Kərim Tahirov qeyd edib ki, müstəqil Azərbaycan ulu öndərin möhkəm təməllər üzərində ucaltdığı əzəmətli abidədir. Azərbaycanın bugünkü inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttin ardıcıl davam etdirilməsinin nəticəsidir. Heydər Əliyevin layiqli davamçısı, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu 2020-ci ilin 44 günlük Vətən müharibəsində işğal altında olan torpaqlarımızı azad etdi.

Kərim Tahirov çıxışının sonunda qeyd edib ki, Azərbaycan xalqı yaşadıqca ulu öndərin əziz xatirəsi də əbədi yaşayacaq.

Sonra Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "12 dekabr – ümummilli lider Heydər Əliyevin anım günü" adlı virtual sərgi nümayiş olunub.

# "Planet parni iz Baku" KVN teatrı 20 yaşını qeyd edib

Dekabrın 13-də Heydər Əliyev Sarayında mədəniyyət nazirinin birinci müavini Elnur Əliyevin "Planet parni iz Baku" KVN teatrının kollektivi ilə görüşü keçirildi. Görüş kollektivin 20 illik yubileyi münasibətilə təşkil olunmuşdu.

Kollektivi salamlayan Elnur Əliyev əlamətdar yubileylə bağlı mədəniyyət naziri Anar Kərimovun təbriklərini çatdırdı, uğurlar arzuladı.

Mədəniyyət Nazirliyinin qarşıya qoyduğu məqsəd və vəzifələrdən söz açan Elnur Əliyev yeniliklər barədə danışdı. Bildirdi ki, nazirlik tərəfindən yeni strategiya hazırlanır və bu strategiyanın devizlərindən biri də "İnsan mədəniyyətindən kənarda heç nə etmir, çünki insanı insan edən onun mədəniyyətidir" fikridir: "Bu gün mədəniyyət sahəsində hər kəsin qarşısında milli kimliyimizi qorumaq missiyası dayanır. Unutmamalıyıq ki, hər bir millət öz milli dəyərləri ilə dünya ölkələri arasında seçilə bilir. 44 günlük müharibədən sonra Qələbə qazanan xalqın nümayəndələri olaraq hər birimiz bu zəfərdə mədəniyyət amilinə də diqqət çəkməliyik. Vətənə sevgi mədəniyyəti, vətənpərvərlik mədəniyyəti bizə bu böyük Qələbəni yaşatdı".

Elnur Əliyev nazirliyin təşəbbüsü ilə həyata keçirilən yeni layihələrdən bəhs etdi. Diqqətə çatdırdı ki, yaxın zamanlarda işğaldan azad edilmiş ərazilərdə, həmçinin hərbi hissələrdə teatr tamaşalarının nümayişi nəzərdə tutulub. Teatr cəmiyyətin aynasıdır. Elə bir cəmiyyət yoxdur ki, orada teatra maraq olmasın. Biz teatr sahəsində yeniliklər tətbiq edərək onun populyarlaşdırılmasına zəmin yaratmalıyıq. Bu mənada yaxın 20 ildə "Planet parni iz Baku" KVN teatrının da cəmiyyət üçün faydası az olmayıb. Teatrın tamaşaları hər zaman böyük maraqla qarşılanıb. Vaxtilə "Parni iz Baku" Şən və Hazırcavablar Klubunun Moskvadakı çıxışları hər azərbaycanlının qəlbini fərəh hissi ilə doldururdu. Daha sonra bu missiya "Planet parni iz Baku" KVN teatrı tərəfindən davam etdirildi.

Nazirin birinci müavini mədəniyyət sahəsində həyata keçirilən islahatlardan da söz açdı, Azərbaycan Film Komissiyasının fəaliyyəti, yaradıcı sənayelərin təbliği baxımından atılan yeni addım və layihələr haqqında məlumat verdi.

Daha sonra Elnur Əliyev kollektivi təbrik edərək 20 illik yubiley münasibətilə Mədəniyyət Nazirliyinin fəxri fərmanını teatrın rəhbəri, Əməkdar artist Tahir İmanova təqdim etdi.



Tahir İmanov Mədəniyyət Nazirliyi tərəfindən göstərilən diqqətə görə minnətdarlığını ifadə etdi. Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin onların yaradıcılığına hər zaman diqqətlə yanaşdığını qeyd edən Tahir İmanov bir müddət əvvəl KVN teatrı üzvlərinin "Tərəqqi" medalı ilə təltif olunmasına görə dövlət başçısına təşəkkürünü bildirdi.

O, teatrın yaradılmasında xüsusi xidmətləri olan Anar Məmmədxanovun xatirəsini ehtiramla yad edərək onun ənənələrinin kollektiv tərəfindən məsuliyyətlə davam etdirildiyini dedi. Həmçinin bu illər ərzində hər bir tamaşanın uğurla baş tutmasında köməyini əsirgəməyən Heydər Əliyev Sarayının kollektivinə minnətdarlığını bildirdi.

Əməkdar artist Bəhram Bağırzadə də fəaliyyətlərinə göstərilən diqqətə görə ölkə rəhbərliyinə və Mədəniyyət Nazirliyinə minnətdarlıq etdi.

Sonra görüş gələcək planlar, yeni layihələr ətrafında mövzuların müzakirəsi ilə davam etdi.

***

Görüşdən sonra media nümayəndələrinə müsahibə verən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev bildirdi ki, 20 yaşlı kollektivin teatr məkanında özünəməxsus yeri var. Kollektiv hər zaman azərbaycançılıq ideologiyasına sadiq qalıb. Görüşün əhəmiyyətini yüksək qiymətləndirən Elnur Əliyev dedi ki, nazirlik olaraq məqsədimiz mədəniyyət sahəsini həm peşəkarlar, həm də investorlar üçün mümkün qədər cəlbedici etməkdir: "Ən vacibi isə bu sahənin peşəkarlar üçün cəlbedici olmasıdır. Bununla bağlı planlarımızı bölüşdük. İnanıram ki, gələcəkdə bu görüşün nəticələrini görə biləcəyik".

**LALƏ**

# Əbədiyaşar lider

Bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində də ulu öndər Heydər Əliyevin vəfatının 18-ci ildönümü münasibətilə müxtəlif tədbirlər keçirilib.



Sabirabad Regional Mədəniyyət İdarəsi (RMİ) Sabirabad rayon Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə iştirakçılar tərəfindən Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı mərkəzdə nümayiş etdirilən eksponatlara baxış keçirilib. Sonda "Böyük ömrün anları" adlı qısametrajlı film nümayiş olunub.

Sumqayıt RMİ Sumqayıtın Tarixi Muzeyində keçirilən tədbirdə idarənin rəisi Rəşad Əliyev ulu öndərin mədəniyyət və incəsənətə verdiyi dəyərdən, sənət adamlarına göstərdiyi qayğıdan danışıb.

Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilən elmi-praktik konfransda "Unudulmaz lider" sənədli filmi nümayiş olunub.

Masallı RMİ Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində "Böyük ömrün dastanı" adlı ədəbi-bədii kompozisiya təqdim edilib. Xalq şairi Zəlimxan Yaqubun ulu öndərə ithaf olunmuş poeması əsasında hazırlanmış kompozisiyada Xalq teatrının aktyorları və Masallı Dövlət Regional Kollecinin müəllim və tələbələri çıxış ediblər.



Şəki RMİ Şəki Heydər Əliyev Mərkəzində ulu öndərin anım günü ilə əlaqədar silsilə tədbirlər keçirilib, məktəblilər, tələbələr, ayrı-ayrı əmək kollektivləri üzvlərinin mərkəzə ekskursiyaları təşkil olunub. Balakən rayon Heydər Əliyev Mərkəzi və rayon Təhsil şöbəsinin birgə əməkdaşlığı ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında "Əbədi müstəqillik tarixi yazan lider" adlı şeir müsabiqəsi keçirilib. Qax rayon Heydər Əliyev Mərkəzində "Dahi şəxsiyyət" adlı sənədli film nümayiş olunub.

Xaçmaz RMİ Quba rayon MKS Mərkəzi Kitabxanasının Uşaq şöbəsində keçirilən anım tədbirində kitabxana əməkdaşları və Tələt Mikayılov adına şəhər 5 saylı tam orta məktəbin şagirdləri ulu öndərə həsr olunmuş şeirlər söyləyiblər.



İsmayıllı RMİ Qəbələ Dövlət Rəsm Qalereyasında "Sən uca bir zirvəsən" adlı sərgi təşkil olunub. Sərgidə gənc rəssamların əsərləri nümayiş etdirilib. Regional idarənin tabeliyində fəaliyyət göstərən bir sıra mədəniyyət müəssisələrində də tədbirlər keçirilib.

Şəmkir RMİ Göygöl rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə ulu öndərin zəngin həyat yolu, çoxşaxəli fəaliyyəti və Göygöl rayonuna etdiyi səfərlər haqqında məlumat verilib.

Ağdaş RMİ Ağdaş rayon Heydər Əliyev Mərkəzində təşkil edilən tədbirdə ulu öndərin həyat və fəaliyyətini əks etdirən kitab sərgisi nümayiş olunub.

Ağstafa RMİ-nin əhatə etdiyi Qazax, Ağstafa və Tovuz rayonlarında ulu öndərin abidəsi ziyarət edilib, Heydər Əliyev mərkəzlərində görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən kitablardan ibarət sərgi nümayiş olunub. Qazax Dövlət Rəsm Qalereyasında isə "Ulu öndərin ömür yolu Vətənə, xalqa xidmət nümunəsidir" başlığı altında sərgi təşkil edilib.

Gəncə RMİ Telman Hacıyev adına 2 nömrəli Uşaq musiqi məktəbinin müəllim kollektivi və şagirdləri Gəncə şəhər Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Ağcabədi RMİ-nin tabeliyində fəaliyyət göstərən bir sıra mədəniyyət müəssisələrində Heydər Əliyevin vəfatının 18-ci ildönümü münasibətilə tədbirlər təşkil olunub.

# Yaşar Nurinin 70 illik yubileyi qeyd olunub

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Hacıağa Abbasov adına Mədəniyyət Mərkəzində Xalq artisti Yaşar Nurinin (1951–2012) 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə mədəniyyət müəssisələrinin, təhsil ocaqlarının nümayəndələri, Xalq artisti Yaşar Nuri yaradıcılığının işığına toplaşan sənətsevərlər iştirak ediblər.

Tədbirin aparıcısı Nurlan Həsənzadə görkəmli teatr və kino aktyorunun həyat və yaradıcılığı haqqında danışıb.

Sənətkarın həyat yoldaşı Rəhimə Nuriyeva və qızı Ülkər Nuriyeva təşkilatçılara minnətdarlıq edərək, xatirələrini bölüşüblər.

Yaşar Nuriyə həsr olunmuş videoçarx nümayiş olunub.

Xatirə axşamında Xalq artisti Gülyaz Məmmədova, Əməkdar artistlər Zakir Əliyev, Elza Seyidcahan, Natiq Fərzəliyev, Azad Şükürov çıxış ediblər. Nurlan Həsənzadə, Zümrüd Bədəlova, müğənni Vüqar Bəxtiyar, tələbələr Elnarə Heydərova, Cavid Telman, gənc aktyor və parodiyaçı Ramin Abdullayevin çıxışları da maraqla qarşılanıb. Sənətkarın qızı Ülkər Nuriyevanın ifası tədbirə rəng qatıb.

# "Dünyada söz olmasa, nəyə gərək düşüncə"

## Respublika Uşaq Kitabxanasının festivalı başa çatıb

Xəbər verdiyimiz kimi, F.Köçərli adına Respublika Uşaq Kitabxanası Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş "Dünyada söz olmasa, nəyə gərək düşüncə" adlı festival təşkil edib. Dekabrın 6-da başlanan festival dekabrın 13-də "Söz sənəti mülkünün sultanı" adlı onlayn konfransla yekunlaşıb.

Konfransda F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Ş.Qəmbərova, direktor müavini, Əməkdar mədəniyyət işçisi Zahirə Dadaşova, BDU-nun Filologiya fakültəsinin professoru, fəlsəfə elmləri doktoru Mətanət Abdullayeva, kitabxananın əməkdaşları, Zaqatala MKS-nin direktor əvəzi Leyla Məmmədova, Qusar MKS-nin direktoru Zahir Mustafayev, Qax MKS-nin direktoru Güllü Əhmədova, Balakən MKS-nin direktoru Məryəm Tağıyeva, bölgələrdən kənd kitabxana əməkdaşları iştirak ediblər.

Çıxışçılar festival çərçivəsində görülən işlərdən söhbət açıblar, mövzu ilə bağlı məruzələr dinlənilib.

№92 (1869)
15 dekabr 2021
www.medeniyyet.az

# İşğaldan azad edilmiş ərazilərdə mədəni irs abidələrinin bərpası

## Hədəflər, çağırışlar, xüsusiyyətlər, perspektivlər

əvvəli səh. 1-də

Prezidentin köməkçisi işğaldan azad olunan ərazilərdə bərpa prosesində iştirak edən Azərbaycanın özəl sektoruna, o cümlədən "Pasha Holding"ə, bərpa-yenidənqurma işlərini işıqlandırdıqlarına, dünyaya çatdırdıqlarına görə media nümayəndələrinə təşəkkürünü ifadə edib.

Qeyd olunub ki, Heydər Əliyev Fondu ötən illər ərazində dünyanın müxtəlif ölkələrində tarixi-dini abidələrin bərpasında iştirak edib. Qazanılmış bu təcrübə hazırda Azərbaycanın işğaldan azad olunan ərazilərində tətbiq olunmaqdadır.

Dəyirmi masada Avstriyanın "Wehdorn Architekten" şirkətinin icraçı direktoru Manfred Vehdornun videomüraciəti təqdim olunub. O, işğaldan azad olunan ərazilərdəki bərpa işlərinin kompleks şəkildə həyata keçirildiyini qeyd edərək görülən işləri bölgəyə yenidən həyatın qayıtması kimi səciyyələndirib.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov çıxış edərək bildirib ki, dövlət başçısının tapşırığına əsasən, şəhərin tarixi görkəminin bərpası üzrə qısa müddət ərzində xeyli işlər görülüb. Şəhərin tarixi abidələr yerləşən hissələri zonalara ayrılıb. "Təkcə Şuşa şəhərində 150-dən çox tarixi abidə mövcuddur. Bu abidələrin hər birinin bərpası bizim üçün xüsusi önəm daşıyır. Prezident İlham Əliyevin Şuşanın mədəniyyət paytaxtı elan edilməsi barədə sərəncam imzalaması şəhərin xüsusi əhəmiyyətə malik olduğunu bir daha göstərir. Buna görə də Şuşanın bərpası və yenidənqurması xüsusi həssaslıqla aparılır", – deyə Aydın Kərimov bildirib.

Qarabağ Dirçəliş Fondu İdarə Heyətinin sədri Rəhman Hacıyev bildirib ki, Heydər Əliyev Fondu apardığı bütün bərpa işlərində inklüziv yanaşmadan istifadə edir, bu işlərə xarici mütəxəssislər cəlb edilir. Bu, tamamilə doğru yanaşmadır. Çünki bərpa olunan abidələr təkcə Azərbaycanın deyil, bütün dünyanın



mənəvi sərvətidir. İşğaldan azad edilmiş ərazilərdəki abidələrin bərpası Qarabağ Dirçəliş Fondu üçün prioritet məsələdir. Fond bu işlərdə daim Heydər Əliyev Fondu ilə əməkdaşlıq edir.

"Uni Construction" şirkətinin bərpaçısı, italiyalı mütəxəssis Luigi Scrinzi qeyd edib ki, Qarabağdakı maddi-mədəni abidələr inanılmaz dağıntılara məruz qalıb. "Qarabağ" "böyük bağ, abad məkan" deməkdir. Lakin bu məfhumlara indi Qarabağda rast gəlinmir. Bu gün Qarabağın yenidən dirçəldilməsi, həyata qaytarılması istiqamətində görülən işlər, bu yerlərin abadlaşdırılması həm də müqəddəs mahiyyət daşıyır.

"Uni Construction" şirkətinin layihə rəhbəri, türkiyəli mütəxəssis Əli Ünlü Şuşadakı abidələrin Azərbaycan xalqı üçün çox böyük əhəmiyyətə malik mədəni irs olduğunu deyib. Lakin bu irs işğalçılar tərəfindən, demək olar ki, tamamilə dağıdılıb: "Dağıdılmış abidələrin bərpası istiqamətində böyük işlər görülür. Bu işlər şəxsən Prezident İlham Əliyevin nəzarəti ilə aparılır. İşğaldan yenicə azad ediləndə Şuşadakı abidələrin dağıntılara məruz qaldığı müşahidə olunurdu. Aşağı Gövhər ağa məscidinin həyətindəki mədrəsə də bu qəbildəndir. Bu kimi tarixi tikililərin bərpası son dərəcə həssaslıqla aparılır".

Avstriyanın "Partner Consulting+Projects" şirkətinin bərpaçısı Roman Brugger Ağdam Cümə məscidinin bərpa konsepsiyası barədə danışıb. Bildirilib ki, məscid Qarabağın tarixi baxımından çox önəmli abidədir. Aparılan işlərdə əsas məqsəd məscidin əvvəlki görüntüsünü özünə qaytarmaq və onu tarixi abidələr sırasına qazandırmaqdır.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi İdarə Heyətinin sədri Məftun Abbasov da gördükləri işlərdən danışıb. Bildirib ki, mühafizəsinə ehtiyac olan tarixi abidələrlə iş xüsusi həssaslıqla görülür. Şəhərin Baş planının hazırlanması istiqamətində xarici mütəxəssislərlə birgə müzakirələr aparılır. Şuşalıların doğma şəhərlərinə mütəmadi səfərləri təşkil olunub, eyni zamanda onların köçürülməsi və şəhərdə çalışan insanların yerləşdirilməsi istiqamətində işlər həyata keçirilir.

Şuşa şəhərində Mehmandarovlar malikanə kompleksinin bərpası ilə bağlı danışan "Cronos" şirkətinin baş bərpaçısı Uğur Miralay bildirib ki, digər tarixi abidələrimiz kimi, bu maddi-mədəniyyət tikilisi də erməni işğalı dövründə dağıntılara məruz qalıb. Hazırda abidənin əvvəlki görkəmi özünə qaytarılır. Aparılan işlər zamanı tarixi mənbələrdəki fotolardan istifadə edilir.

Gürcüstan Milli Muzeyinin Konservasiya Elmi İnstitutunun Restavrasiya şöbəsinin rəhbəri Salome Guruli və Gürcüstan Milli Muzeyinin Konservasiya Elmi İnstitutunun rəhbəri Nino Kalandadze "Tarixi binaların konservasiyası, yeni əlavələrin işlənməsi və onlara qulluq – Gürcüstan Milli Muzeyinin örnəkləri" mövzusunda çıxışlar ediblər.

Latviyanın "Buvtelnieks" şirkətinin layihələr üzrə baş meneceri Sandis Cvetkovs və şirkətin ortağı Janis Meroza "Buvtelnieks" şirkətinin bərpa və restavrasiya sahəsində təcrübəsi ilə bağlı fikirlərini bölüşüblər.

"Simmetrico" şirkətinin (İtaliya) baş memarı Françesko Giordano "Yeni Şuşa məscidi layihəsi – konsepsiya və yanaşma" mövzusunda çıxış edib. Bildirib ki, məscidin tikintisində həm daş və ağac kimi yerli materiallardan istifadədə, həm də bir sıra üslub elementlərində Şuşanın ənənəvi tikililərinə bağlılıq olacaq. "Şuşa – dəyər, tarix, irs, mədəniyyət və təbii gözəllik olan bir məkandır. Şuşa şəhəri həm qorunmalı, həm də gələcək nəsillərə ötürülməlidir. Reallaşdırdığımız layihə şəhərin identifikliyini vurğulayır, eyni zamanda ətraf mühiti xatırladır. Layihədə Şuşaya xas olan elementlər yer alıb. Bu layihə həm də Şuşanın azad olunması tarixini əks etdirəcək", – deyə o əlavə edib.

Əməkdar memar Ədalət Məmmədov "Zəngilan şəhəri məscid kompleksinin tikintisi" mövzusunda çıxış edib. Bildirilib ki, Zəngilan şəhərindəki məscid kompleksi XIX əsrdə inşa edilib və memarlıq abidəsi kimi inventarlaşdırılıb. Ermənistanın işğalı dövründə məscid düşmən qüvvələri tərəfindən dağıdılmış və ilkin görkəmini, demək olar, tamamilə itirmişdi. XIX əsrin memarlıq abidəsi mövcud vəziyyətində konservasiya edilib və ərazidə yeni məscid inşa olunur.

Böyük Britaniyanın "Mangera Yvars Architects" şirkətinin direktoru Ali Mangera şirkətin bərpa və restavrasiya sahəsində təcrübəsindən danışıb: "Azərbaycanın tarixi və Qarabağ haqqında məlumatlıyam. Qarabağın inkişafı Azərbaycanın ümumi inkişafına böyük töhfə verə bilər. Gənclərin Qarabağa qayıdışının təmin edilməsi olduqca vacibdir. Bu ərazidə layihələr reallaşdırmaqla Azərbaycan dünyaya ekoloji dayanıqlılığın təmin edilməsinin önəmini nümayiş etdirə bilər. Qarabağ həm mədəniyyət beşiyidir, həm iqtisadi baxımdan əhəmiyyətə malikdir, həm də turizmin inkişafı üçün vacib regiondur. Biz Qarabağda dəhşətli dağıntıların şahidi olduq. İndi buradakı binaların, abidələrin necə bərpa və restavrasiya edilməsi üzərində düşünürük".

Dəyirmi masada daha sonra Bolqarıstanın "EKSA" şirkətinin icraçı direktoru Konstantin Nedkov Pee "Xristian dininə aid sadalanan bina və komplekslərin tədqiqi, dizaynı və bərpası və onların ətraf mühitlə sosiallaşması üçün ən yaxşı təcrübələr" mövzusunda çıxış edib.

# "Poeziya dünyasının dahisi"

**Lənkəran RMİ Astara rayon Mərkəzi Kitabxanasında "Poeziya dünyasının dahisi" adlı tədbir keçirilib. Astara şəhər 1 nömrəli tam orta məktəbin şagirdləri Nizaminin əsərlərindən parçalar, hikmətli sözlərindən nümunələr səsləndiriblər.**

Şəmkir RMİ Göygöl rayon Xaqani kənd Uşaq musiqi məktəbində Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş konsert keçirilib. Konsert proqramında məktəbin şagirdləri dahi şairin əsərlərinə bəstələnmiş "Sevgili canan" və "Sənsiz" romanslarını ifa ediblər.



Xaçmaz Regional Mədəniyyət İdarəsi (RMİ) Xaçmaz şəhər Uşaq incəsənət məktəbinin təşkilatçılığı ilə rayon Heydər Əliyev Mərkəzində Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş tədbir keçirilib. İdarə rəisi Vüsal Hüseynov, Xaçmaz RİH başçısının müavini Günel Nurəddinovanın iştirak etdiyi tədbirdə şagirdlərin əl işlərindən ibarət sərgi nümayiş olunub. Məktəbin müəllim və şagirdləri Nizaminin lirikasından nümunələr söyləyiblər.

# Sərgi, tamaşa və yubiley tədbirləri

**Xaçmaz RMİ Qusar Dövlət Rəsm Qalereyasında Xalq rəssamı, UNESCO Rəssamlar Federasiyasının, Rusiya Rəssamlıq Akademiyasının, Almaniya Rəssamlar Birliyinin üzvü, Almaniyada yaşayan soydaşımız Əşrəf Heybətovun əsərlərindən ibarət sərgi açılıb. Sərgidə rəssamın yaratdığı irihəcmli əsərlərin reproduksiya nümunələri nümayiş olunub.**



Sumqayıt RMİ Xırdalan şəhər Heydər Əliyev Mərkəzində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) 100 illik yubileyi qeyd edilib. Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova, Bakı Musiqi Akademiyasının prorektoru, professor Nərminə Quliyeva, Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyevin də iştirak etdiyi tədbirdə akademiyanın tələbələri və Xırdalan şəhər 11 illik Musiqi məktəbinin şagirdləri tərəfindən konsert proqramı təqdim edilib.

Ağdaş RMİ Ağdaş rayon Mərkəzi Kitabxanasında tanınmış şair Nüsrət Kəsəmənlinin (1946-2003) 75 illik yubileyi ilə əlaqədar ədəbi-bədii gecə keçirilib. Tədbirdə kitabxananın əməkdaşları və Nizami Gəncəvi adına 2 saylı tam orta məktəbin şagirdlərinin ifasında şairin şeirləri səsləndirilib.



Masallı RMİ Masallı Xalq teatrı tərəfindən Vətən Müharibəsi Qəhrəmanı Ramiz Cəfərova həsr olunmuş "Şuşa qartalı" adlı tamaşa-kompozisiya göstərilib. Şəhidin həyat yoldaşı Sitarə Cəfərova çıxışında Ramiz Cəfərovun qəhrəmanlığından bəhs edib, tamaşaya görə yaradıcı kollektivə minnətdarlığını bildirib. Xalq teatrının kollektivi və Masallı Dövlət Regional Kollecin müəllim və tələbələrinin iştirakı ilə səhnələşdirilən kompozisiya maraqla qarşılanıb.

**Hazırladı: N.MƏMMƏDLİ**

# Paytaxtın Şağan qəsəbəsində yeni muzey

## "22 illik kolleksiya toplamağım muzeyin yaranması ilə nəticələndi"

əvvəli səh. 1-də

Tarix elmləri doktoru, professor Təvəkkül Səlimov şəxsi təşəbbüs olaraq Azərbaycanda belə bir muzeyin istifadəyə verilməsini yüksək qiymətləndirdi. Diqqətə çatdırdı ki, muzeylər cəmiyyətin inkişafında, maddi-mənəvi irsin, mədəni dəyərlərin və eləcə də xalqın tarixi yaddaşının qorunub saxlanmasında mühüm rol oynayır.

Əməkdar rəssam Rais Rəsulzadənin Azərbaycanın gözəlliklərini əks etdirən əsərləri tədbir iştirakçılarının marağına səbəb oldu. Fırça ustasının yağlı boya ilə çəkdiyi "Çinarlar", "Abşeronda", "Şuşada", "Dəniz kənarında qəsəbə" və s. əsərlər aydın rəngləri, fərqli çalarları ilə göz oxşayırdı. Müəllif qısa çıxışı zamanı sərgiyə və muzeyin açılışına gələn qonaqlara təşəkkürünü bildirdi, mədəniyyətimizi, tariximizi yaşadan bütün gənclərə dəstək olmağın vacibliyini vurğuladı.

Tədbirdə məlumat verildi ki, gənc kolleksiyaçı, yazar Səyavuş Əlizadə tərəfindən yaradılan "Xəzər" Muzey Mərkəzində 12 mindən çox eksponat mövcuddur. Burada görkəmli Azərbaycan rəssamlarının şəxsi kolleksiyasından nümunələr, Orta əsrlərə aid məişət əşyaları, əlyazma kitablar, tətbiqi sənət örnəkləri, tanınmış klarnet ifaçısı, basbalabanın yaradıcısı, Əməkdar artist Bəhruz Zeynalova (1926-1998) aid musiqi alətləri, XIX əsrə məxsus 20-dən çox daşbasma kitab və s. eksponatlara rast gəlmək mümkündür.



Səyavuş Əlizadə muzeyin açılışı ilə əlaqədar fikirlərini bizimlə bölüşdü. O, tədbirin 7 dekabrda keçirilməsinin təsadüfi olmadığını dedi: "Səbəb odur ki, 1918-ci il dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin keçmiş Qızlar məktəbinin binasında (indiki Əlyazmalar İnstitutunun binası) Cümhuriyyət Parlamentinin təntənəli açılışı olub. Bu, bütün müsəlman Şərqində demokratik prinsiplər əsasında formalaşan ilk parlament idi. 1919-cu ildə isə Parlamentin fəaliyyətə başlamasının birilliyi münasibətilə onun binasında İstiqlal Muzeyi təsis edilib. Mənim üçün ən əsas məqamlardan biri də odur ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti zamanı iki həmyerlimiz – şağanlı Məmməd Yusif Cəfərov və Heybətqulu Məmmədbəyli aktiv ictimai-siyasi fəaliyyət göstəriblər. 22 illik kolleksiya toplamağım bu muzeyin yaradılması ilə nəticələndi.

Muzeyin ərazisini mənə hədiyyə edən orta məktəb müəllimim Sevda Abdullayevaya təşəkkür edirəm. Onu da qeyd edim ki, gələcəkdə muzey "Sevda Abdullayeva adına "Xəzər" Muzey Mərkəzi" adlandırılacaq. Eyni zamanda tezliklə muzeyin ərazisində Cümhuriyyət Parlamentinin üzvü və dövlət nəzarəti naziri vəzifəsində çalışmış Heybətqulu Məmmədbəyli, həmçinin əslən şağanlı olan SSRİ Ali Sovetinin VII çağırış deputatı olmuş Hacı Murad Pənahov və akademik Hacıbəy Sultanovun barelyefləri qoyulacaq. Barelyeflər gənc heykəltəraş Tamerlan Mirzəliyev tərəfindən hazırlanacaq".

Yeri gəlmişkən, qeyd edək ki, hələ 2014-cü ildə qəzetimizə müsahibə verən Səyavuş Əlizadə muzey yaratmaq istədiyini bildirmişdi. Gənc kolleksiyaçının 2013-cü ildə "Baku Creative Center"də "İlk və son" adlı sərgisi açılmışdı. Hazırda YARAT Müasir İncəsənət Məkanının təşkilatçılığı ilə XX-XXI əsrlər Azərbaycan Rəngkarlığı Muzeyində davam edən Xalq rəssamı Mirnadir Zeynalovun "Mistik ruhun ömrü" adlı retrospektiv sərgisində Səyavuş Əlizadənin kolleksiyasından da əsərlər nümayiş olunur.

**Lalə AZƏRİ**

# Yeni aşkar olunmuş 1400-dən çox abidə qeydə alınıb

**Tarix və mədəniyyət abidələrinin qorunması, onların tədqiqi, bərpası, təbliği və gələcək nəsillərə çatdırılması günümüzün ən aktual məsələsi kimi diqqət mərkəzində saxlanılır.**

Ölkəmizdə tarix və mədəniyyət abidələrinin dövlət mühafizəsinə götürülməsi, onların qorunması işinin təşkilinin başlanması isə ötən əsrin 50-ci illərində mütəşəkkül şəkil alıb. Tarix-mədəniyyət abidələrinin dövlət mühafizəsinə götürülməsi və müvafiq siyahıya salınması ilk dəfə 1957-ci ildə həyata keçirilib. 1968, 1981-ci illərdə dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix-mədəniyyət abidələrinin siyahısı yenidən təsdiq edilib və əvvəlki siyahıya daxil edilməyən tarixi abidələr də dövlət qeydiyyatına alınıb. Sovet dövründə sonuncu dəfə respublika ərazisində yerləşən tarix-mədəniyyət abidələrinin yenidən təftiş edilərək Azərbaycan SSR Nazirlər Sovetinin 27 aprel 1988-ci il tarixli 145 nömrəli qərarı ilə siyahıya alınması nəticəsində 2178-memarlıq, 756-sı arxeoloji olmaqla ümumilikdə 2934 abidə dövlət mühafizəsinə götürülmüşdü.

Müstəqillik illərində isə Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli qərarı ilə dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix-mədəniyyət abidələrinin yeni siyahısı təsdiq edilib. Bu reyestrdə abidələr əhəmiyyət dərəcəsinə görə üç qrupa – dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinə bölünərək təsnif olunub. Hazırda ölkəmizdə 82-si dünya, 2059-u ölkə və 4167-si yerli əhəmiyyətli olmaqla ümumilikdə 6308 daşınmaz tarix-mədəniyyət abidəsi dövlət mühafizəsindədir.

Tarix və mədəniyyət abidələrinin dövlət qeydiyyatına alınması davamlı bir prosesdir. Bu proses daimi olaraq həyata keçirilir. Tarix, memarlıq və arxeoloji abidələr müəyyən edilərək müvafiq prosedurlar həyata keçirildikdən sonra onlar da dövlət qeydiyyatına alınır.

Son illər ərzində ölkə ərazisində aparılmış monitorinqlər nəticəsində əvvəlki siyahılara daxil edilməyən 1400-dən çox tarix, memarlıq və arxeoloji əlamət daşıyan obyekt müəyyən edilərək yeni aşkar olunmuş tarix-mədəniyyət abidələri kimi qeydə alınıb. Aparılan monitorinqlər zamanı abidələrin fiziki vəziyyətləri vizual olaraq qeyd edilib, onların coğrafi koordinatları GPS vasitəsilə təyin edilib. Yeni aşkar olunmuş abidələrə də mühafizənin ilkin dərəcəsi tətbiq edilərək qorunması işi təşkil edilib. Bu abidələrin də dövlət qeydiyyatına alınması üçün müvafiq prosedurlar həyata keçirilir.

Aparılan işlər yalnız yeni siyahının hazırlanmasına xidmət etmir, həm də müasir tələblərə cavab verən məlumat bazasının yaradılması üçün əsas rol oynayır. Hazırda dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin yeni siyahısının tərtibi ilə bağlı tamamlama işləri həyata keçirilir.

**Fariz HÜSEYNLİ**
**Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin əməkdaşı**

# Bakıdan Şuşaya gedən avtobus...

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA – Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin bazasında yaradılır) yanvarın 15-dən Qarabağa müntəzəm avtobus reyslərinin açılmasını planlaşdırır.**

Qurumdan verilən məlumata görə, Bakı şəhərindən, Füzuli rayonunun Əhmədbəyli kəndindən (Zəfər yolu ilə) və Füzuli Beynəlxalq Hava Limanından Şuşa şəhərinə, eləcə də Bakıdan Ağdam şəhərinə marşrut xətlərinin yaradılması nəzərdə tutulub.

Bu məqsədlə daşıyıcıların seçilməsi üçün açıq müsabiqə elan edilib. İddiaçılar dekabrın 27-nə qədər ərizə ilə quruma müraciət etməli, yanvarın 6-na qədər isə əsas sənədləri, o cümlədən balanslarında olan nəqliyyat vasitələri barədə məlumatları təqdim etməlidir.

Daşıyıcılar seçilərkən rahat, ekoloji cəhətdən təmiz avtobuslara olanlara üstünlük veriləcək. İlkin mərhələdə Qarabağa reyslər həftədə 2 dəfə olacaq. Əgər daşımalar rentabelli olarsa, reyslərin sayı artırıla bilər", – deyə AYNA-dan bildirilib.

# Bəstəkarlar İttifaqında anım tədbiri

## Heydər Əliyev mədəniyyətimizin böyük dostu və himayədarı idi

Heydər Əliyev ensiklopedik biliyə malik şəxsiyyət idi. İncəsənətin bir qolu olan musiqi də onun diqqətindən kənarda deyildi. O, musiqini çox sevir, bu sənətin sirlərini dərindən bilirdi. Görkəmli musiqiçilərlə yaxın ünsiyyəti vardı və bu münasibətlər musiqi sənətinin inkişafına xidmət edirdi.



Bu sözlər dekabrın 10-da Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) Üzeyir Hacıbəyli adına konsert salonunda ümummilli lider Heydər Əliyevin vəfatının 18-ci ildönümünə həsr olunan anım tədbirində səsləndi.

Tədbiri ABİ-nin sədri, Xalq artisti Firəngiz Əlizadə açaraq ulu öndər Heydər Əliyevin mədəniyyətimizin böyük himayədarı olduğunu vurğuladı: "Ulu öndərin Azərbaycanın görkəmli musiqi xadimləri ilə də şəxsi dostluğu vardı. Onlarla səmimi görüşlər keçirər, müəyyən musiqi əsərləri və tamaşalar haqqında müzakirələr aparar və rəylərini öyrənirdi. Sovet dövründə Heydər Əliyevin təşəbbüsü əsasında Filarmoniyada maestro Niyazinin bədii rəhbərliyi ilə simfonik konsertlər keçirilirdi. Niyazinin iş otağında hamımız yığışardıq. Çox maraqlı söhbətlər aparılırdı. Görürdük ki, o, siyasi xadim olmasına baxmayaraq, musiqi haqqında çox dolğun məlumatı var. Bəzən də çox maraqlı və ciddi suallar verirdi. Biz bunlardan çox təəccüblənirdik".

Firəngiz Əlizadə Azərbaycan musiqi mədəniyyətinin "qızıl dövr"ünün – musiqimizin korifeyləri Fikrət Əmirov, Qara Qarayev, Niyazi və digərlərinin yazıb-yaratdığı dövrün – Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğuladı.

Sonra ümummilli liderin həyat və fəaliyyətini əks etdirən videolent nümayiş olundu.

Firəngiz Əlizadə ulu öndərə həsr etdiyi "İthaf" əsərindən də söz açdı: "Dünya şöhrətli musiqiçi və Heydər Əliyevin yaxın dostu Mstislav Rostropoviçlə məsləhətləşdik ki, 2003-cü ildə Azərbaycan Dövlət Filarmoniyasının təmiri başa çatar. Açılışı zamanı mənim ulu öndərə həsr etdiyim bu əsər səslənər. Təəssüf ki, bizim istədiyimiz kimi olmadı. Həmin il böyük öndər dünyasını dəyişdi. 2004-cü ildə Filarmoniyanın təmiri başa çatandan sonra təntənəli açılış konserti oldu. Əsərin ilk ifası zamanı səhnədə Heydər Əliyevin portreti qoyulmuşdu. Rostropoviç səhnəyə çıxıb üzünü həmin şəklə tutaraq öz violonçelində İ.S.Baxın "Farabanda" əsərini ifa etdi. Sonra orkestr mənim "İthaf" əsərimi səsləndirdi. Bu, bizim dahi şəxsiyyətin ruhuna ehtiramımızın bir zərrəsi idi. Azərbaycan musiqisində bu dahi şəxsiyyətə həsr olunan əsərlər yaranır və gələcəkdə də yaranacaq".

ABİ-nin katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova "Azərbaycan bəstəkarlarının Heydər Əliyevə həsr olunmuş simfonik əsərləri" mövzusunda məruzə etdi. Bildirdi ki, ümummilli lider ölkəmizə rəhbərliyinin hər iki dövründə mədəniyyət xadimlərinə, o cümlədən musiqiçilərə xüsusi diqqət və qayğı ilə yanaşıb. Musiqi xadimlərimiz isə Heydər Əliyevin simasında bu sənətin qüdrətli himayədarı və böyük dostunun olduğunu hiss ediblər. Heydər Əliyevə həsr edilən çoxlu sayda musiqi əsərləri yazılıb. Həmin musiqi əsərləri zamanın bədii sifarişi və tariximizin bədii həqiqətləridir. Cövdət Hacıyevin "Onu zaman seçib" simfoniyası və "Ulu öndər" simfonik poeması, Musa Mirzəyevin "Azadlığın baharı" kantatası, Vasif Adıgözəlovun "Odlar yurdu" kantatası, Arif Məlikovun "Əbədiyyət" simfoniyası, Tofiq Bakıxanovun "Sən həmişə bizimləsən" simfonik poeması, Oqtay Rəcəbovun simfonik orkestr ilə xor üçün "Heydər Ata" oratoriyası, Vasif Allahverdiyevin "Ömür yolu" simfonik poeması, İdris Mirzəyevin "Üç dənizin əfsanəsi" simfoniyası və s. əsərlər ulu öndərə ehtiramın ifadəsi kimi diqqətəlayiq nümunələrdir.

Sonra ABİ-nin katibi, Əməkdar incəsənət xadimi, professor Cəlal Abbasovun "Son illərdə Azərbaycan bəstəkarlarının vətənpərvərlik mövzusunda yazılmış yeni əsərləri", ittifaqın məsul katibi, Əməkdar müəllim, sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənovanın "Heydər Əliyev Fondunun musiqi layihələri və bu layihələrin gerçəkləşməsində Bəstəkarlar İttifaqının rolu" mövzusunda məruzələri dinlənildi.

Məruzələrdən sonra bəstəkar, Əməkdar müəllim Lalə Cəfərovanın solistlər, xor və simfonik orkestr üçün "Əbədiyaşar Heydər" əsərinin lent yazısı təqdim olundu. Əsər Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbə simfonik orkestri və solistlər – Xalq artisti Gülnaz İsmayılova və Fəxri Kazım Nicatın ifasında səsləndi.

**Savalan FƏRƏCOV**

# "Sonsuz Tanrı məhəbbəti"

## Bakı Bələdiyyə Teatrının "Nizami Gəncəvi İli"nə töhfəsi

Bakı Bələdiyyə Teatrı "Nizami Gəncəvi İli" münasibətilə hazırladığı "Sonsuz Tanrı məhəbbəti" tamaşasını təqdim edib. Premyera dekabrın 10-da Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində keçirilib.



Teatrdan bildirilib ki, ölkə başçısının sərəncamı ilə elan olunan "Nizami Gəncəvi İli" çərçivəsində Bakı Bələdiyyə Teatrı da dahi şairin irsinə müraciət edib. "Xəmsə" əsasında hazırlanan "Sonsuz Tanrı məhəbbəti" tamaşasının səhnələşdirəni və quruluş müəllifi görkəmli rejissor, Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı İlham Əsgərov, musiqi hissə müdiri Nazim Əbidov, işıqçı rəssamı Tərlan Ələsgərli, kostyum sexinin müdiri Leyla Əkbərova, dizayn işləri üzrə tərtibatçısı Elnur Əliyevdir.

Təqdimatdan öncə nizamişünas Təhminə Bədəlova və Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani çıxış ediblər.

Sonra tamaşa nümayiş olunub. Tamaşaçı salonu Nizami dühasının işığına sığınıb.

Rolları Əməkdar artistlər Səmayə Sadıqova, Əhməd Salahov, Şaxzadə Babayeva, Rafiq İbrahimov, Hüsniyyə Mürvətova, aktyorlar Tural Əhməd, Tural Baxış, Zülfiyyə Məmmədova, İsmayıl Atakişiyev, Məmmədağa Əlicanzadə və başqaları canlandırıblar.

# Nizaminin 880 illiyinə həsr edilmiş akvarel vorkşopu

Dekabrın 11-də Xətai Sənət Mərkəzində Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş akvarel vorkşopu keçirilib.

Tədbir Mədəniyyət Nazirliyi, Rəssamlar İttifaqı, Dövlət Rəsm Qalereyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dəstəyi, Beynəlxalq Sulu boya Cəmiyyətinin (İWS Globe) Azərbaycandakı nümayəndəliyi olan "İWS Azerbaijan" və "İWS Khatai Art Center"in təşkilatçılığı ilə gerçəkləşib. Vorkşop "Nizami Gəncəvi və yaradıcılığı ilə bağlı hər bir janr (fiqurativ, mənzərə, natürmort)" mövzusuna həsr edilib.



Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov çıxış edərək qonaqları salamlayıb. Bildirib ki, dahi Azərbaycan şairinin 880 illik yubileyinə həsr olunan tədbirin məqsədi akvarel sənətinin ölkəmizdə yayılması, rəssamların yaradıcı ünsiyyəti, bilik və təcrübə mübadiləsinə şərait yaratmaqdan ibarətdir.

Sənətşünas, Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyev, Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimi Nəzakət Əhmədova və Beynəlxalq Sulu boya Cəmiyyəti Azərbaycan nümayəndəliyinin həmsədri Səbinə İskəndər çıxış edərək incəsənətdə akvarelin rolundan və əhəmiyyətindən danışıblar.



Tədbirdə ADMİU-nun Rəssamlıq fakültəsi geyim dizaynı ixtisasının 4-cü kurs tələbələri Nizami Gəncəvinin "Yeddi gözəl" əsərinə həsr edilmiş geyim nümunələrini nümayiş etdiriblər.

Vorkşopda iştirak edən rəssamlar isə dahi şairin portretini, eləcə də "Yeddi gözəl" əsərinə və Nizami dövrünə aid müxtəlif əşyaları təsvir ediblər.

# Təkbaşına "Kontrabas"da?

"Kontrabas" müasir alman yazıçısı, dramaturq və ssenaristi Patrik Züskindin ən məşhur əsərlərindəndir. Özünü dramaturgiyada sınayan müəllifə şöhrət gətirən və sonrakı uğurlu əsərlərinə yol açan bu nümunə dünyanın bir sıra teatrlarında fərqli quruluşlarda səhnə həllini tapıb.



Dövlət musiqi orkestrinin 35 yaşlı kontrabasçısının öz həyatından, uşaqlığından, gizli sevgisindən, qayğılarından, ağrılarından, miskin arzularından danışdığı bu əsər, həyatına əl gəzdirməyə gücü çatmayıb bütün ağırlığını kontrabasın üstünə "yıxan" bir musiqiçinin yox, ümumən insanın, insanlığın monoloqudur da deyə bilərik.

Özünü çox tənha və bədbəxt hiss edən, gizlinlərinin içində çapalayan və həyat faciəsini təkbaşına yaşamağa məhkum olan musiqiçinin monodramı Azərbaycan səhnəsindən də keçib. Əməkdar artist Şövqi Hüseynov özünəməxsus oyun üslubunda "Kontrabas"ı səhnədən səhnəyə, festivaldan festivala daşıyıb, mükafatlar qazanıb.

20 ildən artıqdır Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində oynanılan bu əsərin səhnə quruluşuna müstəqil "Şah Mat" teatrında baxdım. Dekabrın 11-də teatrda "Kontrabas" pyesi əsasında hazırlanan eyniadlı monotamaşanın premyerası oldu.

Teatrın bədii rəhbəri Mir Qabil Əkbərovun quruluş verdiyi bu "Kontrabas"ın ifaçısı gənc aktyor Fərid Vəliyev idi. Xronometrajı 50 dəqiqə olan tamaşanın quruluşçu rəssamı Günel İsgəndərova, geyim üzrə rəssamı Səbinə Abutalıbzadə, musiqi tərtibatçısı Şükür Babayevdir.

Kubizm (kiçik kublar) yanaşması ilə qurulan tamaşada əsas mövzu kontrabasçı və onun peşəsinə sevgisidir. Tamaşaçı rejissorun müşayiəti ilə digər kiçik kubları da bir araya gətirərək xəyali kontrabas və onun ifaçısının şəklini "çəkir". Gənc aktyor mövzunun ağırlığına, ideyanın çoxqatlığına təslim olmadan mizandan irəli gələn fiziki və mənəvi yükünü eyni zamanda tamaşaçıya ötürməyə çalışır. Biz təzadlar içində qıvrılan musiqiçinin gah böyük əziyyətlə birləşdirdiyi kontrabasına sevgisinə, bağlılığına tamaşa edir, gah da onu yerə çırpıb parçalamaq istəyinə təəssüflənirik.

Rejissorun laqeyd, eqoist, küskün, bir az da hökmran cəmiyyətə bənzətdiyi orkestr ilə onun üzvü olmaq üçün hansısa alətdə çalmağa məhkum insanın asılılığını göstərməyə çalışdığı tamaşa izləyicilər tərəfindən maraqla qarşılandı.

**HƏMİDƏ**

# "Xatirələr" musiqi kompozisiyası təqdim olunub

Dekabrın 12-də Beynəlxalq Muğam Mərkəzində (BMM) ulu öndər Heydər Əliyevin vəfatının 18-ci ildönümü münasibətilə xatirə gecəsi təşkil olunub.

Gecədə BMM-in direktoru, pianoçu, Xalq artisti Murad Hüseynovun "Xatirələr" kompozisiyası təqdim edilib. Lirik kompozisiyada böyük dövlət xadimi, dünya şöhrətli siyasətçi Heydər Əliyev ömrünün ölkəmizin tərəqqisinə həsr olunmuş tarixi anları həzin notlarla ifadə olunur. İnstrumental əsərin "Xatirələr" adlanması təsadüfi deyil. Ümummilli lider Heydər Əliyev siyasi və dövlətçilik fəaliyyətinin bütün dövrlərində mədəniyyət xadimlərinə, o cümlədən musiqiçilərə xüsusi diqqət və qayğı ilə yanaşıb, musiqi sənətinin inkişafına xidmət edən mühüm qərarlara imza atıb. İncəsənət xadimləri Heydər Əliyevi sənətin qüdrətli himayədarı, böyük dostu kimi görüblər. Bu, musiqiçilərimizi yaradıcı kimi də, vətəndaş kimi də qürurlandırıb, onlara ilham verib.

Klip şəklində təqdim olunan "Xatirələr" kompozisiyasında ulu öndərin həyat və fəaliyyətini əks etdirən filmlərdən kadrlar da yer alır. Pianoçunun ifasında lentə alınan "Xatirələr" kompozisiyasının rejissoru İlqar Əkbər, operatoru Elvin Muradxanlıdır.

**Lalə AZƏRİ**

# Beynəlxalq Muğam Mərkəzi Macarıstanın Mədəni İrs Evi ilə əməkdaşlıq edəcək

Beynəlxalq Muğam Mərkəzi (BMM) ilə Macarıstan Mədəni İrs Evi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.



Dekabrın 13-də keçirilən tədbirdə BMM-in direktoru, Xalq artisti Murad Hüseynov Macarıstan Mədəni İrs Evinin art direktoru Pal İştvana mərkəzin fəaliyyəti haqqında məlumat verib. Bildirib ki, milli mədəni irsə dövlətin göstərdiyi diqqət, muğam sənətimizin dünyada təbliği istiqamətində Heydər Əliyev Fondu və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səyləri nəticəsində bu gün Azərbaycan musiqisi dünyanı fəth edir.

Murad Hüseynov həmçinin musiqinin müxtəlif sahələrində birgə əməkdaşlığın perspektivlərindən söz açıb. Vurğulayıb ki, BMM öz fəaliyyətində beynəlxalq əlaqələrə xüsusi önəm verir. Memorandum Azərbaycan ilə Macarıstan arasında mədəni əlaqələrin genişlənməsinə, hər iki mədəniyyətin qarşılıqlı təbliğinə, həmçinin muğam sənətinin və bütövlükdə Azərbaycan musiqisinin daha geniş məkanda tanıdılmasına töhfə verəcək.

Mərkəzlə yaxından tanış olan Pal İştvan əməkdaşlıq, həyata keçirilə biləcək layihələrlə bağlı fikirlərini bölüşüb. Deyib ki, Macarıstan Mədəni İrs Evi ölkənin Mədəni İrs Nazirliyi tərəfindən macar xalq ənənələrini qorumaq və təbliğ etmək məqsədilə yaradılmış milli qurumdur. Qurum macar xalq ənənələri ilə bağlı bütün layihələri dəstəkləyir və təbliğ edir.

BMM ilə Macarıstanın musiqi kollektivləri arasında qarşılıqlı olaraq etnik musiqinin təbliği və birgə fəaliyyət istiqaməti mövzusuna toxunan Murad Hüseynov əməkdaşlıq çərçivəsində milli mədəni irs nümunələrini təbliğ edən sərgi, tədqiqat və konsert layihələrin keçirilməsinin zəruriliyini vurğulayıb.

Görüş zamanı iki qurum arasında qarşılıqlı layihələrin təşkili, həm Macarıstan, həm də Azərbaycanda təşkil edilən festivallarda qarşılıqlı sənət mübadiləsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# "Bir nəfəs qədər"

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında qürur mənbəyimiz olan şəhidlərə, qazilərə, əsgər övladlarımıza və Zəfərimizin simasına çevrilən analarımıza həsr olunan "Bir nəfəs qədər" (pyesin müəllifi: Samir Qulamov) tamaşası təqdim edilib.



SSRİ Xalq artisti Fikrət Əmirovun musiqisi əsasında hazırlanan səhnə əsərinin ideya müəllifi və bədii rəhbəri teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, quruluşçu rejissoru Samir Qulamov, quruluşçu dirijoru və musiqi tərtibatçısı Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu rəssamı Vüsal Rəhim, quruluşçu baletmeysteri Əməkdar artist Leyla Ağayevadır. Tamaşada Prezident təqaüdçüsü, gənc pianoçu Kamil Həsənovun fortepiano musiqisindən də istifadə olunub. Tamaşa maraqla qarşılanıb.

Səhnə əsərində Əməkdar artist Nahidə Orucova, aktyorlar Gülnarə Abdullayeva, Gülcahan Salamova, Əmrah Dadaşov, İbrahim Əlizadə, Nəzrin İsmayılzadə, Mehriban Zaliyeva, Səmədzadə Xasıyev, Hidayət Əliyev, Əli Kərimov, Murad Əliyev iştirak ediblər.

# Mərkəzi İncəsənət Məktəbinin şagirdi XV "Delfi Oyunları"nda uğur qazanıb

Xəbər verdiyimiz kimi, dekabrın 7-dən 10-dək MDB-yə üzv ölkələrin gənclərinin XV "Delfi Oyunları" keçirilib. Rusiyanın təşkilatçı ölkə kimi çıxış etdiyi, amma pandemiya səbəbindən onlayn təşkil olunan budəfəki yarışlar 10 nominasiya üzrə gerçəkləşib.



Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdi, beynəlxalq müsabiqələr laureatı Mənzurə Abdürəhmanova "solo oxuma (xalq)" nominasiyası üzrə uğur qazanıb.

Mənzurə Azərbaycan xalq mahnısı "Ay Laçın", Əlibaba Məmmədovun "Mənim Azərbaycanım" və "Şahnaz" muğamını (müəllim: Lalə Hüseynova, konsertmeysterlər: Nəbi Quliyev və Elnur Məmmədov) ifa edərək müsabiqənin diplomuna layiq görülüb.

Qeyd edək ki, Mərkəzi İncəsənət Məktəbinin direktoru, Əməkdar artist, dosent Əziz Qarayusifli XV "Delfi Oyunları"nda "nəfəs alətləri" nominasiyası üzrə münsiflər heyətində təmsil olunub.

# "25 an – 25 yaş"

## Şəhid qəhrəmanın fotolarından ibarət sərgi

Dekabrın 10-da Xətai Sənət Mərkəzində Vətən müharibəsi şəhidi Elnur Allahverdizadənin vaxtilə çəkdiyi fotolardan ibarət "25 an – 25 yaş" adlı sərgi keçirildi.




Azərbaycan Fotoqraflar Birliyi (AFB) və Xətai Sənət Mərkəzinin dəstəyi ilə təşkil olunan sərgi dekabrın 13-dək davam edib.

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canından keçmiş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

AFB İdarə heyətinin sədri Mirnaib Həsənoğlu sərgi haqqında məlumat verdi. Bildirdi ki, sərgi "Biz sizə borcluyuq" kampaniyası çərçivəsində keçirilir: "Elnur bu şəkilləri vaxtilə çəkərək öz "Facebook" sosial şəbəkə səhifəsində yerləşdirib. Biz həmin şəkilləri sosial şəbəkədən toplayaraq "25 an-25 yaş" adı ilə sərgisini təşkil etmişik".



M.Həsənoğlu söylədi ki, Elnur Vətən müharibəsi başlayana qədər səs rejissoru kimi fəaliyyət göstərib. O, "Barama", "Atılmışlar" serialları, "Son iclas" sənədli-bədii filmi, çoxsaylı maraq doğuran reklamların səs rejissoru olub. "Picmus production"un əməkdaşı olan Elnur "Bozbash pictures"lə də çalışıb. "Simurq" serialı Elnurun şəhadətindən sonra onun əziz xatirəsinə ithaf olunub. "Bütün bunlarla yanaşı, Elnurun bir foto dünyası olub. O, gördüklərini çəkərək sosial şəbəkələrdə paylaşıb. Vətən müharibəsi başlanmazdan qabaq Elnurun artıq peşəkar fotoqrafiyaya keçmək planları var idi. Lakin onun bu arzusu həyata keçmədi. Allah Elnura və bütün şəhidlərimizə rəhmət eləsin", – deyə AFB-nin rəhbəri bildirdi.

Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov Elnurun valideynlərinə xatirə banneri hədiyyə etdi.

Daha sonra şəhidin valideynləri Əli Həsənov və Süsən Həsənova çıxış edərək Elnurun xatirəsinə göstərilən diqqətə görə tədbir iştirakçılarına təşəkkürünü bildirdilər.

Sonda tədbir iştirakçıları sərgi ilə yaxından tanış oldular.

Qeyd edək ki, əslən Zəngilan rayonundan olan Elnur Allahverdizadə 1995-ci il mayın 15-də Sumqayıt şəhərində anadan olub. İlk təhsilini Sumqayıt şəhəri 41 saylı tam orta məktəbdə alıb. 2016-ci ildə Bakı Slavyan Universitetinin Tərcümə fakültəsini çex dili ixtisası üzrə bitirib, hərbi xidmətə gedib. Vətən müharibəsi başlayandan iki gün sonra döyüşə yollanıb. Ağdam və Xocavənd istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib. Noyabrın 7-də Ağcabədi rayonunun Yuxarı Qiyamədinli kəndi ərazisində düşmənin açdığı top atəşi nəticəsində şəhid olub.

Noyabrın 8-də Sumqayıt şəhər Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

**NURƏDDİN**

# Yubiley ərəfəsində

"Uşaqlar və gənclər bizim gələcəyimiz, ümidimizdir. Sabahın böyük bəstəkarı və musiqişünası onlar arasından çıxacaqdır. Mən bütün gənclərimizi musiqini dərindən bilən, çalğı alətlərindən birində ifa etməyi bacaran, yaxşı ifaçını başqasından ayıran, musiqi janrlarını bir-birindən fərqləndirən, ümumiyyətlə, musiqi əsərlərinə həssaslıqla yanaşan şəxslər kimi görmək istəyirəm...".



Bu sözlər 2021-ci ildə anadan olmasının 99-cu ildönümünü qeyd etdiyimiz böyük bəstəkarımız Fikrət Əmirov tərəfindən yazılıb. Onun adını daşıyan 6 nömrəli onbirillik İncəsənət məktəbi də sənətkarın tövsiyələrini əsas götürərək artıq ənənə halını almış "F.Əmirovun əsərlərini ifa və təhlil edirik" adlı şagird və müəllimlərin VI elmi-ifaçılıq konfransını keçirdi.

Budəfəki konfransın bir önəmli cəhəti də odur ki, o, iki əlamətdar yubiley ərəfəsində keçirildi. Çünki 2022-ci ildə Fikrət Əmirovun 100 illiyi ilə bərabər onun adını daşıyan məktəbində 60 illik yubileyi qeyd olunacaq.

F.Əmirov adına 6 nömrəli onbirillik İncəsənət məktəbinin xüsusi layihəsi olan "F.Əmirovun əsərlərini ifa və təhlil edirik" adlı elmi-ifaçılıq konfransı 2016-cı ildən keçirilir. İlk dəfə məktəbdaxili formatda keçirilsə də, II elmi-ifaçılıq konfransından başlayaraq, Bakı şəhərində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəbləri də bu konfransa qatılıblar. Müxtəlif illərdə C.Hacıyev adına 3 nömrəli, Niyazi adına 22 nömrəli, eləcə də 33 nömrəli, 34 nömrəli uşaq musiqi məktəbləri, 38 nömrəli gözdən əlillər üçün musiqi məktəbi konfransda iştirak edib.

Müxtəlif illərdə keçirilən konfranslarda bəstəkarın kamera-instrumental, vokal-instrumental, səhnə və simfonik əsərlərindən hissələr təhlil və ifa edilib. 2017-ci ildə keçirilmiş II konfrans bəstəkarın vokal əsərlərinin təhlilinə, yeni interpretasiyalara həsr olunmuş, III konfransda "Muğam F.Əmirov yaradıcılığında" mövzusu əsas götürülmüş, 2019-cu ildə – IV elmi-ifaçılıq konfransında ("Dialoq, elm, innovasiya") müasir musiqi təhsilində innovativ metodlara dair fikir mübadiləsi aparılmışdı. Pandemiya şəraitində keçirilən V elmi-ifaçılıq konfransı virtual şəkildə keçirilmişdi.

VI elmi-ifaçılıq konfransının proqramına daxil edilən müxtəlif mövzular arasında həmçinin məktəbdə 2016-cı ildən təsis edilmiş "F.Əmirov muzeyi", yeni eksponatların təqdimatı ilə bağlı məruzə də edildi. Məruzəçi – məktəbin direktoru A.Yusifova muzeyə daxil olmuş yeni fotoşəkilləri və digər eksponatları ətraflı şərh etdi. Bu cür innovativ metodlar gənc musiqiçilərin elmi araşdırmalar aparmaq istiqamətində əhəmiyyətli rol oynayır, tematik konfransların mütəmadi keçirilməsi müəllim və şagirdlərdə məsuliyyəti artırır, bəstəkar irsinə dəqiq yanaşma, musiqi zövqünün formalaşmasını və ən əsası, məktəblər arasında əməkdaşlıq, birlikdə fəaliyyət göstərmə səriştəsini inkişaf etdirir.

**A.MANAFOVA**



№92 (1869)
15 dekabr 2021
www.medeniyyet.az

# Xarakterik obrazlar ustası

## Mərziyyə Davudova – 120

Azərbaycan kino və teatrının inkişafında böyük xidmətləri olan sənətkarlarımızdan biri SSRİ Xalq artisti Mərziyyə Davudova olub. Görkəmli aktrisanı anadan olmasının 120 illiyi ilə əlaqədar yada saldıq.

Mərziyyə Yusif qızı Davudova 8 dekabr 1901-ci ildə Həştərxanın Sarevo kəndində dünyaya göz açıb. İbtidai təhsilini Sarevo kənd dördillik "Darültəhsil" məktəbində alıb. Sonra "Qaliyə" və "İqbal" rus-tatar məktəblərində oxuyub. Mərziyyə hələ məktəbli ikən teatra maraq göstərir, özfəaliyyət dərnəklərində həvəskar aktyorların hazırladıqları tamaşalarda çıxışlar edirdi. Onun "İqbal" məktəbində "Birinci teatr" adlı ikipərdəli tamaşasında canlandırdığı Əfifə rolu xüsusilə uğurlu alınır.

Həvəskar aktrisanı ilk dəfə görüb istedadını kəşf edən isə unudulmaz aktyorumuz Hüseyn Ərəblinski olur. O, 1918-ci ildə Həştərxanda qastrolda olarkən gənc qızın səhnə oyununu bəyənir və Bakıya dəvət edir. 1919-cu ildə Mərziyyənin anası qəflətən vəfat edir. O, 1920-ci ildə Bakıya gəlir. Birləşmiş Dövlət Teatrı nəzdindəki Türk Dram Teatrına (indiki Akademik Milli Dram Teatrı) işə qəbul edilir. Beləliklə, taleyini əbədi olaraq Azərbaycan səhnəsinə bağlayır. Aktrisa ilk olaraq Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasında Gülçöhrə, sonra isə Cahan xala rollarında səhnəyə çıxır. Hüseyn Cavidin "İblis" əsərinin tamaşasında böyük səhnə xadimi, sonradan həyatları birləşən Abbas Mirzə Şərifzadə ilə tərəf-müqabil olur. Bu tamaşadakı çıxışı onun səhnə yaradıcılığında yeni səhifə açır. Çox keçmir, Mərziyyə Davudova bir-birinə bənzəməyən müxtəlif qadın rollarında səhnəyə çıxır. Xarakterik qadın obrazlarının bənzərsiz ifaçısı kimi diqqət çəkir. Cəfər Cabbarlının "Sevil" tamaşasında yaratdığı Sevil obrazı isə gözlənildiyindən də təsirli alınır. Tamaşa başa çatdıqdan sonra qadınlar çadralarını elə oradaca atırlar. Həmin vaxt C.Cabbarlı gənc aktrisanın sənət kəhkəşanı haqqında yazırdı: "Mərziyyə yetkin bir sənətkardır, ustadır. Aktrisa səhnədəki əhval-ruhiyyəsi ilə bütün tamaşa salonuna təsir edən heyrətamiz bir istedada malikdir".

Araşdırmalarda qeyd edilir ki, Mərziyyə Davudovanın obraza girmək bacarığı çox güclü olub. Bu istedadına görə o, A.M.Şərifzadə və digər görkəmli sənətkarlarla bir sırada dayanmaq haqqı qazanıb. Aktrisa C.Cabbarlı, H.Cavid, S.Vurğun, M.İbrahimov, M.Hüseyn, Ə.Məmmədxanlı kimi Azərbaycan dramaturqlarının əsərləri ilə yanaşı, rus və Qərbi Avropa ədiblərinin pyesləri əsasında hazırlanan tamaşalarda da fərqli və mürəkkəb qadın obrazları yaradıb.







SSRİ Xalq artisti Hökümə Qurbanova xatirələrində yazır: "Bu da taleyin qismətidir. Mərziyyə xanımın ilk dəfə yaratdığı obrazları sonralar mən oynadım. Həmişə həyəcan keçirirdim ki, o bu məsələyə necə baxacaq. Böyük ürək və istedad sahibi idi. Həmişə tamaşadan sonra məni ilk təbrik edib oyunumu bəyəndiyini söyləyən Mərziyyə xanım olardı. Bu aktrisa əsl sənət fədaisi kimi gənclərə xüsusi qayğı göstərərdi".

Geniş yaradıcılıq diapazonu olan görkəmli sənətkar öz istedadını Azərbaycan kinosunda da sınayıb. O, 30-cu illərdən başlayaraq irili-xırdalı filmlərdə, o cümlədən "Hacı Qara", "Bir ailə", "Bakının işıqları", "Bəxtiyar", "Həqiqi dost", "Bir məhəlləli iki nəfər", "Koroğlu" və digər ekran əsərlərində yaddaqalan obrazlar yaradıb. Xüsusən onun "Bir ailə", "Bakının işıqları" və "Koroğlu" filmlərində yaratdığı müxtəlif xarakterli ana obrazları öz bədii dəyəri ilə seçilən sənət nümunələri hesab edilir.

M.Davudovanın ifasındakı zəngin naxışlar onun sənətini fərqləndirən əsas əlamətlər olub. Görkəmli teatr rejissoru, pedaqoq, SSRİ Xalq artisti Mehdi Məmmədov "Teatrlar, aktyorlar, tamaşalar" kitabında M.Davudovanın sənətini yüksək qiymətləndirir: "O, müxtəlif cəhətlərin, başqa-başqa üsulların, bəzən təzadların uyuşmasından, vəhdətindən istifadə edir. Romantik ünsürlər onun oyununda məişət boyaları, faciə ünsürləri isə yumor boyaları ilə uzlaşır, o, qəhrəmanlığı göstərmək üçün adilikdən, monumentallığı sezdirmək üçün təfərrüatdan istifadə edir. İlham dəqiqələrində biz səhnəmizin sönməz ulduzu Mərziyyə xanımın oyununda böyüklüyün sadəliyini və sadəliyin böyüklüyünü az görməmişik".

Zəngin xarakterlər ustası olan görkəmli aktrisa 40 illik yaradıcılıq fəaliyyətində yüzlərcə rəngarəng, unudulmaz səhnə qəhrəmanları yaradıb. Bütün bunları beş-on günün içində deyil, sənətkarlığın yüksək pilləsinə addım-addım, əziyyətlə yüksəlib. Yaradıcılıq nailiyyətləri yüksək qiymətləndirilən M.Davudova 1933-cü ildə "Əməkdar artist", 1936-cı ildə "Azərbaycan Respublikasının Xalq artisti", 1949-cu ildə isə "SSRİ-nin Xalq artisti" fəxri adlarına layiq görülüb. Aktrisa 1956–1961-ci illərdə Azərbaycan Teatr Cəmiyyətinin (indiki Teatr Xadimləri İttifaqı) sədri vəzifəsində işləyib. Bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olub.

Teatr səhnəsində, kino ekranlarında bir sıra möhtəşəm, yaddaşlardan silinməyən obrazlar qalereyası yaradan Mərziyyə Davudova 6 yanvar 1962-ci ildə Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

**Savalan FƏRƏCOV**

# Yüz yaşlı musiqi məbədi

XX əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi dəyişikliklər təhsil, mədəniyyət kimi sahələrdə də həyati əhəmiyyətli, tarixi hadisələrə təkan verdi.



Azərbaycan musiqi mədəniyyətinin yüksək səviyyəyə qaldırılması, Şərqin ilk ali musiqi tədrisi ocağının əsasının qoyulması dünya xəritəsində kiçik yeri olan bir ölkənin nəyə qadir olacağına tutarlı bir işarə idi. Əlbəttə, baş verən bütün bu məsələlərin intensivləşməsi idarəçilikdə olan şəxsiyyətlərin kimliyi ilə birbaşa əlaqəli idi. Bu baxımdan musiqi tədrisində idarəçiliyin təsadüf və ya zərurətdənmi Üzeyir Hacıbəyli dühasına rast gəlməsi musiqimizin və ümumilikdə incəsənətimizin gələcək müqəddəratını həll etmiş oldu. 1921-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (bugünkü Bakı Musiqi Akademiyasının) əsası qoyuldu.

Yetmiş ildən çoxdur banisinin adını daşıyan ali təhsil ocağı təməli qoyulduğu vaxtdan musiqimizin məbədinə, respublikamızda musiqi tədrisinin əsas sütununa çevrildi. Azərbaycan mədəniyyətini öz çiyinlərində daşıyan, ona bu günə qədər gəlib çıxmaqda və illərin sınağından keçməkdə yardımçı olan şəxsiyyətlərin böyük əksəriyyəti məhz Azərbaycan Dövlət Konservatoriyasının, hazırkı Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının yetirmələri olmuşlar. Odur ki, böyük fəxarət hissi ilə deyə bilərik ki, biz də bu yaradıcılıq ümmanının bir damlasıyıq.

Hər bir şəxsin həyatında təhsil aldığı məkan və illər çox önəmlidir. Ölkəmizin təhsil sistemində xüsusi yeri olan bizim ali məktəb də təkcə təlim-tədris ab-havası ilə deyil, yaradıcı atmosferi və ideyaların reallaşması istiqamətində hər bir yetirməsinə dayaq olacaq məkandır. Dərs saatını bitirmiş hər bir tələbənin "öz dünyası"na çəkilərək yaradıcılıq atmosferinə qərq olması bizim akademiya üçün adi haldır. Bu, ali məktəbdə hökm sürən mühit – sabit olduğu qədər yenilikçi, rasional olduğu qədər yaradıcı mühitlə əlaqədardır. Belə bir mühitin yaranmasında Azərbaycanda musiqi təhsilinin təməlini qoyan Üzeyir Hacıbəylidən başlayaraq hazırda onun yolunu davam etdirən, cəsarətli və yenilikçi yanaşmaları daim dəyərləndirən professor Fərhad Bədəlbəyliyədək akademiyanın bütün rektorlarının müstəsna əməyi və rolu olub.

Bakı Musiqi Akademiyasının 100 illik tarixini idarəçilik quruluşu baxımından bir neçə dövrə bölmək olar. Bu mərhələlərdə rəhbər vəzifəni həm pianoçular (L.Pressman, İ.Aysberq, F.Bədəlbəyli), həm musiqişünaslar (B.Məmmədova, E.Abasova), həm də bəstəkarlar (Ü.Hacıbəyli, Q.Qarayev, Ə.Abbasov, C.Hacıyev, S.Hacıbəyov) icra etmişlər.

Bakı Musiqi Akademiyasının özəl cəhətlərindən biri sələflərə hörmət, xatirələrə sadiqlikdir. Akademiyanın memarlıq nümunəsi olan binası (memarlar Sadıq Dadaşov və Mikayıl Hüseynov) musiqi tariximizin böyük bir salnaməsinə şahiddir. Burada "Üzeyir bəyin otağı", "Qarayevin sinfi" və s. kimi tanınan otaqlar var ki, onlarda hökm sürən sirlilik söz ilə izah olunmazdır. Həmin şəxsiyyətlərin varlığı bu məkanlarda daim duyulur.

Bakı Musiqi Akademiyasının quruluşunda heç bir fakültənin əhəmiyyətini azaltmadan Tarix-nəzəriyyə fakültəsi və onun daxilindəki kafedraların rolunu vurğulamaq istərdim. Bu xüsusilik bəlkə də qeyri- ixtiyari olaraq həmin fakültənin yetirməsi olmağımdan irəli gəlir. Yarandığı gündən bu fakültə musiqi tariximizin formalaşması üçün önəmli rol oynamışdır.

Onu da qeyd edək ki, ilk illərdə azərbaycanlı müəllimlərin olmaması səbəbindən Üzeyir Hacıbəyli ixtisaslı kadrların formalaşması üçün xarici müəllimlərə üz tutur və ya yerli tələbələrin təhsillərini təkmilləşdirmək üçün onların Moskva, Peterburq, Milan və s. konservatoriyalara getməsinə şərait yaradırdı. Zamanla bu addımların nə qədər doğru olduğu isbat edilmişdir. İlk illərdə tələbələr arasında azərbaycanlılar sayca azlıq təşkil etsə də, getdikcə fakültələrin sayı artır, tərkibi dəyişir.

Sözügedən Tarix-nəzəriyyə fakültəsi hazırda musiqişünas, professor Gülzar Mahmudovanın rəhbərliyi altında 5 kafedradan (Musiqi tarixi, Musiqi nəzəriyyəsi, Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyaları, Bəstəkarlıq, Xor dirijorluq) ibarət olub musiqişünas, bəstəkar, xormeyster-dirijor, pedaqoq kimi ixtisaslı kadrlar yetişdirməkdədir.

Fakültədə məşhur bəstəkar, dirijor, musiqişünaslar fəaliyyət göstərmişlər. Onların hər birinin xüsusi dəst-xətti və yaradıcılıq izi olmuşdur. Bu gün fakültənin kafedralarına hər birinə böyük hörmət bəslədiyimiz və daim biliklərindən mənəvi qida aldığımız Ülviyyə İmanova, Könül Nəsirova, Gülbacı İmanova, Tariyel Məmmədov və Aydın Əzimov kimi musiqi xadimləri və pedaqoqlar rəhbərlik edir. Onların əməyi nəticəsində Azərbaycan musiqisi dünya miqyasında tanınmış və bir çox konsert salonlarında səslənmiş, nüfuzlu beynəlxalq konfrans və simpoziumlarda milli musiqimiz haqqında çıxışlar edilmiş, yerli və xarici nəşrlərdə yazılar dərc olunmuşdur.

Yeni nəslin fakültə işinə cəlb olunması da bütün dövrlərdə öz müsbət təsirini göstərmişdir. Gənc yaşlarından tədrisə cəlb olunan müəllimlərin daha yaşlı nəsillə ünsiyyətdə olma və onların təcrübəsindən faydalanma imkanı yaranır.

Bu gün birəsrlik tarixi olan musiqi məbədi haqqında yazarkən, əslində, bu tarixin özünü yaşamaq imkanında olmanın nə dərəcədə vacibliyi qənaətinə gəlirsən. Azərbaycan Dövlət Konservatoriyasının 50 illik yubileyinə həsr olunmuş toplunu vərəqləyərkən daim özəl hisslər keçirir, o zamanın canlı şahidliyini arzu etmişəm. 50 il sonra fəaliyyətdə olacaq musiqiçilər isə bəlkə də bizim yerimizdə olmanı xəyal edəcəklər. Odur ki, sələflərimizə dərin hörmət və minnətdarlıq hissinin vacibliyini xələflərimizə təlqin edərək mədəniyyətimizi, musiqimizi, mənəviyyatımızı və bütün bu məfhumları özündə birləşdirən ali məktəbimizin dəyərini daim uca tutaq.

Dahi şəxsiyyətin adını daşıyan Bakı Musiqi Akademiyasının bu ada layiq olacaq çoxsaylı nəsillər yetişdirməsi arzusu ilə

**Aybəniz NÖVRƏSLİ**
**musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# “Söz dünyasının günəşi”

## Qəzetimizin “Nizami Gəncəvi İli”nə həsr olunmuş xüsusi buraxılışı çapdan çıxıb




Nizaminin 880 yaşı və Zəfərimizin ilk ildönümü. İllərin bir-birini belə tapması, təsadüf də olsa, yaşadığımız şanlı tarixin naxışı məhz belə olmalı idi. Çünki hər Zəfərdən sonra bir İntibah var. Qarabağ qalibiyyətli 2020-ci il də Nizami dühalı mədəniyyət ili ilə davam etməli idi.

Bu sözlər “Mədəniyyət” qəzetinin “Nizami Gəncəvi İli”nə həsr olunmuş xüsusi buraxılışında qeyd olunub.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə ərsəyə gələn 48 səhifəlik xüsusi buraxılış, dahi şairin yubileyinə töhfə olaraq, respublikamızda, eləcə də xarici ölkələrdə “Nizami Gəncəvi İli”nin mədəni mənzərəsini yığcam, məcmu halda diqqətə çatdırır.


Nizami adına...

Nəşr 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə açılır. Qeyd edilir ki, ədəbi-mədəni irs xalqı yaşadan dəyərdir. Dövlət başçısının mədəni irsə diqqət və qayğısı Azərbaycan ədəbiyyatının korifey simalarına münasibətdə də özünü ifadə edir. 2019-cu ilin ölkəmizdə “Nəsimi ili” kimi qeyd olunması və 2021-ci ilin “Nizami ili” elan edilməsi, mütəfəkkir şairlərimizin zəngin irsinin yaşadılması və təbliğinə əlavə zəmin yaratmaqla yanaşı, Azərbaycan xalqının çoxəsrlik tarixə malik mədəniyyətinin təntənəsidir.

Oxuculara ünvanlanan redaktor yazısında vurğulanır ki, Qarabağa Böyük Qayıdış təkcə insanlarımızın doğma yurdlarına dönüşü deyil, eyni zamanda bu torpaqlarda geniş anlamda mədəniyyətin yenidən bərqərar olması deməkdir. Mədəniyyət yalnız bu sahədə fəaliyyət, yaradılan əsərlər deyil. Mədəniyyət mədəni təfəkkür, insaniyyət, bəşəri dəyərlər və bu dəyərlərə sadiqlikdir. Azərbaycan xalqı bu dəyərləri hələ XII əsrdə Nizaminin misraları ilə dünyaya bəyan edib. Nizami irsinin çağdaş dünyaya layiqincə tanıdılması da ümumilikdə Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda təqdimatının mühüm tərkib hissəsidir. Bu işdə hələ ötən əsrin 70-80-ci illərində mədəniyyətimizin böyük hamisi Heydər Əliyev müstəsna xidmətlər göstərib. Onun təşəbbüsü ilə 1979-cu ildə Nizami Gəncəvi irsinin öyrənilməsi, nəşri və təbliği ilə bağlı tarixi əhəmiyyətli qərarın qəbul edilməsi nizamişünaslığın inkişafına təkan verdi. 1981-ci ildə Nizaminin 840 illiyinin – dövrün konyunkturası ilə yuvarlaq sayılmayan yubileyin SSRİ miqyasında qeyd olunması Heydər Əliyevin vətənpərvərliyinin göstəricisi idi.

Ulu öndər artıq müstəqil Azərbaycanın rəhbəri olarkən həmin dövrü xatırlayaraq demişdi: “Nizami Gəncəvi elə bir şəxsiyyətdir, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər... Bu, Azərbaycanı, onun tarixini bir daha dünyaya tanıtmaq üçün imkandır”.

Həqiqətən də, Nizami Azərbaycanı dünyada tanıdan ən böyük mədəni dəyərdir. Bu, dünən də belə idi, sabah da belə olacaq. Nizaminin dühası adı ilə şərəflənən 2021-ci il də bunun təsdiqidir.

Dahi şairin 880 illiyi çərçivəsində Mədəniyyət Nazirliyinin bilavasitə təşkilatçılığı, eləcə də yaxından iştirakı və dəstəyi ilə ölkəmizdə və onun hüdudlarından kənarda gerçəkləşən silsilə tədbirlər, təqdimat və layihələr xüsusi buraxılışda geniş şəkildə əhatə olunub.

Bu silsilədən ilk böyük tədbir 2021-ci ilin martında qardaş Türkiyədə TÜRKSOY-un dəstəyi ilə keçirilib. Nəşrdə TÜRKSOY-un Ankaradakı qərargahında, eləcə də İstanbulda Azərbaycan Mədəniyyət Nazirliyi və Milli Kitabxananın ilə birlikdə təşkil etdiyi Nizami ünvanlı rəsm və kitablardan ibarət sərgilər diqqətə çatdırılır. Həmçinin noyabr ayında təşkilat tərəfindən Türkiyənin müxtəlif şəhərlərində keçirilən konsert proqramları, eləcə də TÜRKSOY-un ingilis dilində nəşr etdiyi “Nizamini oxuyaq” (“Reading Nizami Ganjavi”) kitabı haqqında məlumat verilir.

“Dünyada “Nizami Gəncəvi İli” başlığı altında materialda Özbəkistan, Rusiya, Polşa, Misir, Ukrayna, Gürcüstan, Çin, İtaliya və digər ölkələrdə, UNESCO-da Mədəniyyət Nazirliyinin, digər qurumların dəstəyi, xaricdəki səfirliklərimizin, mədəniyyət mərkəzlərimizin təşkilatçılığı, yerli qurumların iştirakı ilə keçirilən çeşidli tədbirlərdən bəhs edilir.

1941-ci il oktyabrın 19-da, İkinci Dünya müharibəsinin qızğın çağında blokadaya alınmış Leninqrad (indiki Sankt-Peterburq) şəhərində, Dövlət Ermitajında Nizaminin 800 illik yubileyinə həsr olunmuş toplantı keçirilmişdi. 80 il sonra eyni gündə və məkanda Nizaminin 880 illiyi qeyd olundu. “Ermitajda tarixi yubileyin ildönümü” adlı yazıda bu barədə söhbət açılır.

Əlamətdar ilin yaddaqalan layihələrindən biri 15-26 noyabr tarixində Mədəniyyət Nazirliyi və digər qurumların təşkilatçılığı ilə Bakıda və böyük şairin yurdu Gəncədə reallaşan Nizami Gəncəvi Beynəlxalq Festivalı idi. Xüsusi buraxılışda festivalın rəngarəng tədbirləri, həmçinin festivalın və ümumilikdə “Nizami ili”nin ən böyük tədbiri – 15 ölkədən nümayəndələrin qatıldığı Nizami Gəncəvi Beynəlxalq Forumunun əhəmiyyəti bir daha diqqətə çatdırılır.

2009-cu ildə əsası qoyulan və ənənəvi olaraq (iki ildən bir) Mədəniyyət Nazirliyi tərəfindən təşkil olunan Bakı Beynəlxalq Kitab Sərgisi bu dəfə böyük söz ustadının 880 illiyinə həsr edilmişdi. “Kitabla görüş yeri” başlıqlı material 6–10 oktyabr tarixində Nizami irsinin işığında keçən sərginin çoxsaylı tədbirlərini yada salır.

Ölkəmizin kitabxanalarında Nizaminin zəngin irsinə həsr olunmuş yüzlərlə adda kitab toplanıb. Xüsusi buraxılışda “Nizami ili”nin nəşr layihələri, Dövlət Tərcümə Mərkəzinin, Özbəkistandakı Azərbaycan Mədəniyyət Mərkəzinin, AMEA-nın institutları və digər qurumların çap etdirdiyi kitablar, şairin əsərlərinin müxtəlif ölkələrdən elektron nüsxələri gətirilmiş əlyazmalarının və miniatürlərin Milli Kitabxanada sərgiləri, Milli Kitabxananın özünün ərsəyə gətirdiyi nəşrlər haqqında da məlumat verilir.

Xüsusi buraxılışın geniş bir bölümü “Nizami Gəncəvi İli” münasibətilə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin, eləcə də sairin yaşayıb-yaratdığı Gəncədən başlayaraq Mədəniyyət Nazirliyinin 15 regional mədəniyyət idarəsinin tabe müəssisələrində, həmçinin Naxçıvanda gerçəkləşən tədbir və layihələrə həsr olunub. “Bölgələrimiz “Nizami ili”nin işığında” rubrikası altında materiallar bu ilin, sözün geniş anlamında, Azərbaycan mədəniyyətinin bayramı olduğunu nümayiş etdirir.


Kitabla görüş yeri
Nizami işığında keçən VII Bakı Beynəlxalq Kitab Sərgisi
Köln Universiteti professorunun mühazirəsi

İl ərzində yaradıcılıq təşkilatlarının Nizami Gəncəvi mövzusunda reallaşdırdığı layihələr də nəşrdə əhatə olunub. Bəstəkarlar İttifaqının təşkil etdiyi qəzəl-romans müsabiqəsi, “Nizami və musiqi” mövzusunda elmi konfrans və konsertlər, Teatr Xadimləri İttifaqının “Sənsiz” adlı bədii qiraət müsabiqəsi bu qəbildəndir.

Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Milli Xalça Muzeyinin təşkilatçılığı ilə keçirilən beynəlxalq xalça eskizi müsabiqəsi, nazirliyin “Muzey eksponatının hekayəsini sən danış. Nizami Gəncəvi” müsabiqəsi, muzeylərin konfrans, sərgi, kitab nəşri kimi “Nizami ili”nə töhfə olan bir çox layihələri də xüsusi buraxılışın səhifələrində yer alıb.


Dünyanı bəzəyən Nizami abidələri
Əbədi məkan

Nizaminin həyatı, şair və mütəfəkkir obrazı, Nizami sözü və irsi incəsənətdə dərin iz qoyaraq təsviri sənətdən teatr, kino və musiqiyədək müxtəlif sahələrdə əksini tapıb, yaradıcı insanlara ilham verib. “Nizami Gəncəvi poeziyası miniatürlərdə”, “Müasir təsviri sənətdə Nizami mövzusu”, “Səhnədən keçən irs”, “Azərbaycan bəstəkarlarının yaradıcılığında Nizami mövzuları”, “Nizami və kino” başlıqlı materiallarda bu barədə ətraflı bəhs olunur.

Sözünün qüdrəti ilə poeziya zirvələrini fəth edən Nizami dünya ədəbi fikrinə adını “Xəmsə” (beşlik) ilə əbədi həkk etdirib. “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi gözəl” və “İskəndərnamə” poema-məsnəviləri bəşəriyyəti düşündürən, insanları ədalətə, sülhə, xeyirxahlığa səsləyən ideyalar məcmusudur. “Əbədiyaşar beş söz – hikmət gövhəri” adlı yazıda poemaların hər birinin yazılma tarixi, mövzusu, obrazları və s. haqqında yığcam məlumatlar diqqətə çatdırılır. Bundan əlavə, nəşrin hər səhifəsində Nizami sözündən incilər – “Xəmsə”dən beytlər verilib. “Nizami Gəncəvi: özü və irsi illərdə” başlıqlı yazıda isə şairin doğumundan 880 illik yubileyinədək tarixin salnaməsində qalmış əlamətdar hadisələr qeyd olunub.

Bu gün Azərbaycanda Nizami adına onlarla mədəniyyət, elm-təhsil ocağı, küçə və parklar, eləcə də dünyanın bir sıra ölkələrində mütəfəkkir şairin abidələri, adını yaşadan təhsil müəssisəsi və mərkəzlər var. “Nizami adına...” və “Dünyanı bəzəyən Nizami abidələri” başlıqlı materiallarda bu barədə söz açılır.

XIII əsrin əvvəllərində Gəncədə, Nizaminin qəbri üzərində ilk məqbərə inşa olunan vaxtdan bura elm və irfan əhlinin ziyarətgahına çevrilib, təkcə yerli əhali üçün deyil, müxtəlif ölkələrdən nizamisevərlər üçün müqəddəs məkan hesab edilib. “Böyük dühanın əbədi məkanı” adlı yazı Nizami məqbərəsinin tarixi haqqındadır.

Nəfis bədii dizaynda hazırlanmış “Nizami Gəncəvi 880” xüsusi buraxılışının səhifələri şairin əsərlərinə çəkilmiş məşhur miniatürlərdən siluetlərlə süslənib. Nəşrin üz qabığında şairin Bakıdakı möhtəşəm abidəsinin (heykəltəraş Fuad Əbdürəhmanov) doğan günəşin al şəfəqləri fonunda təsviri, arxa hissəsində isə qüdrətli söz ustadının 880 illiyi münasibətilə 14-16 oktyabr tarixində keçirilən “İşıq festivalı”nın – Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin fasadında əks olunan “Xəmsə” miniatürlərinin 3D proyeksiya təsvirləri verilib. Bununla da nəşrin ümumi tərtibat ideyası Nizami dühasının bəşəri düşüncəni hər zaman aydınladan tükənməz ziya olduğunu simvolizə edir.

Bu il 30 yaşını qeyd edən “Mədəniyyət” qəzeti, dövri nəşri ilə yanaşı, ölkəmizin ictimai-mədəni həyatında müstəsna əhəmiyyət kəsb edən hadisələrlə bağlı xüsusi buraxılışları, tematik əlavələri ilə də oxucuların görüşünə gəlir. “Azərbaycan Xalq Cümhuriyyəti İli” (2018) və “İmadəddin Nəsimi İli”nə (2019) həsr olunan xüsusi buraxılışlar da bu qəbildəndir. “Nizami Gəncəvi İli”nə töhfə olan buraxılışın da oxucular tərəfindən maraqla qarşılanacağına ümid edirik.

Qeyd edək ki, xüsusi buraxılış respublikanın mədəniyyət müəssisələri, yaradıcılıq təşkilatları, bir sıra dövlət qurumları, eləcə də aparıcı elm və təhsil müəssisələri, kütləvi informasiya vasitələri, kitabxanalar üzrə paylanılıb. Nəşr elektron (pdf) formatda “Mədəniyyət” qəzetinin saytında da yerləşdirilib və istifadə üçün açıqdır.

**“Mədəniyyət”**

## Xatirə təqvimi — 14–16 dekabr

### Azərbaycan

**14 dekabr 1915** – Görkəmli müğənni, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatı laureatı Rəşid Məcid oğlu Behbudov (1915 – 9.6.1989) Tiflisdə anadan olub. Əslən şuşalıdır. “Arşın mal alan” (1945), “Bəxtiyar” (1955) filmlərində baş rollara çəkilib, operada (Balaş – “Sevil”) çıxış edib. Azərbaycan musiqisinin dünyada təbliğinə töhfələr verib. Bakıda Mahnı Teatrını yaradıb.

**14 dekabr 1927** – Kristalloqrafiya sahəsində məşhur alim, Azərbaycan EA-nın müxbir üzvü Xudu Surxay oğlu Məmmədov (1927 – 15.10.1988) Ağdamın Mərzili kəndində anadan olub. Ədəbiyyatşünaslıq, sənətşünaslıqla bağlı yazıların, “Naxışların yaddaşı”, “Qoşa qanad” və s. kitabların müəllifidir.

**14 dekabr 1929** – Ədəbiyyatşünas, filologiya elmləri doktoru, tərcüməçi Dilarə Ələkbər qızı Əliyeva (1929-1991) Tiflisdə doğulub. “Nizami və gürcü ədəbiyyatı” mövzusunda tədqiqatları var, gürcü ədəbiyyatından tərcümələr edib. Ali Sovetin deputatı olub.

**14 dekabr 1938** – Əməkdar incəsənət xadimi, rejissor Nazim Hüseynqulu oğlu Abbasov (1938 – 16.9.2000) Lənkəranda anadan olub. Bədii (“Dvorjakın melodiyası”), sənədli və televiziya filmlərinin rejissoru olub.

**14 dekabr 2011** – Tanınmış xanəndə, Xalq artisti Qədir Çərkəz oğlu Rüstəmov (20.11.1935 – 2011) vəfat edib. Muğam və xalq mahnılarımızın bənzərsiz ifaçısı olub.

**15 dekabr 1905** – Əməkdar incəsənət xadimi, rəssam Reyhan İbrahim qızı Topçubaşova (1905 – 5.3.1970) Qubada anadan olub. Portret (“M.Ə.Sabir”), mənzərə (“Mərdəkanın görünüşü”) janrlarında, məişət mövzusunda (“Köhnə bazar”, “Toy”) əsərlər, natürmortlar çəkib.

**15 dekabr 1909** – Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlul oğlu Bəhlulzadə (1909 – 13.10.1974) Bakının Əmircan kəndində doğulub. Əsərləri: “Kəpəzin göz yaşları”, “Vətənimin baharı”, “Azərbaycan nağılı”, “Suraxanı atəşgahı”, “Babəkin üsyanı”, “Fətəli xan” və s. Əsərləri dünyanın bir sıra muzeylərində saxlanılır.

**15 dekabr 1910** – Tarixçi alim, akademik İsmayıl Abbas oğlu Hüseynov (1910 – 8.11.1969) anadan olub. Azərbaycan EA Tarix İnstitutunun direktoru işləyib.

**15 dekabr 1912** – Azərbaycanın ilk qadın bəstəkarı Ağabacı İsmayıl qızı Rzayeva (1912 – 4.7.1975) anadan olub. Mahnı (o cümlədən uşaqlar üçün “Kukla”, “Şən yolka” və s.) və romansların, simli kvartet üçün əsərlərin müəllifidir.

**15 dekabr 1913** – Tarix elmləri doktoru, ictimai xadim Kamran Əsəd oğlu Hüseynov (1913 – 20.4.2006) Qubadlı rayonunun Çərəli kəndində doğulub. Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini olub.

**15 dekabr 1922** – Əməkdar incəsənət xadimi, rejissor Ulduz Saleh qızı Rəfili-Əliyeva (1922–2006) Goranboy rayonunun Borsunlu kəndində doğulub. Gənc Tamaşaçılar Teatrında çalışıb. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**15 dekabr 1924** – Xalq şairi Hüseyn Arif (Hüseyn Camal oğlu Hüseynzadə; 1924 – 14.9.1992) Ağstafa rayonunun Yenigün kəndində doğulub. “Bahar gələndə”, “Söylə, yadındamı?”, “Qocalan deyiləm” və s. kitabların müəllifidir. Azərbaycan Aşıqlar Birliyinin yaradıcısı və rəhbəri olub.

**15 dekabr 1939** – Əməkdar artist, vokal ifaçısı Rumiyə Həmid qızı Kərimova (1939 – 5.12.2020) Bakıda doğulub. Akademik Opera və Balet Teatrının solisti, Bakı Musiqi Akademiyasının professoru olub.

**15 dekabr 1939** – Xalq artisti, müğənni Yalçın İmran oğlu Rzazadə (1939 – 22.2.2021) Lənkəranda doğulub. Azərbaycan Televiziyasında “Dan ulduzu” ansamblının, digər musiqi kollektivlərinin solisti olub, filmlərdə (“Dədə Qorqud”, “Qayınana”) mahnıları ifa edib. Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

**15 dekabr 1999** – Əməkdar mədəniyyət işçisi, aşıq İmran Mehralı oğlu Həsənov (1928–1999) vəfat edib

**16 dekabr 1898** – Xalq rəssamı Qəzənfər Ələkbər oğlu Xalıqov (1898 – 1.3.1981) Bakıda anadan olub. “Molla Nəsrəddin” jurnalında karikaturaçı kimi çalışıb, “Sehrli xalat”, “İstintaq davam edir” filmlərində geyim rəssamı olub. “Nizaminin portreti”, “Firdovsinin dəfni” və s. əsərlərin müəllifidir.

**16 dekabr 1909** – Yazıçı-publisist, Əməkdar mədəniyyət işçisi Cahangir Rəcəb oğlu Gözəlov (1909 – 7.9.1999) Ağdam rayonunun Şıxbabalı kəndində anadan olub.

**16 dekabr 1922** – Ədəbiyyatşünas, Əməkdar mədəniyyət işçisi İmran Sultan oğlu Seyidov (1922 – 10.5.2001) Qubada doğulub. “Koroğlu” dastanını rus dilinə tərcümə edib. Azərbaycan EA İctimai elmlər bölməsində elmi katib olub.

**16 dekabr 1927** – Tarixçi alim, akademik Cəmil Bahadur oğlu Quliyev (1927 – 27.12.2010) Ağdamda doğulub. Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru, Elmlər Akademiyasının vitse-prezidenti olub.

**16 dekabr 1934** – Şair, tərcüməçi, Əməkdar incəsənət xadimi Tofiq Qulam oğlu Bayram (1934 – 18.4.1991) Bakının Əmircan kəndində anadan olub. Kitabları: “Səninlə görüşəndə”, “Əsrin oyunu”, “Könlümdə yaşayanlar”, “Ay gecikən məhəbbətim” və s. Rus dilindən bədii tərcümələrin müəllifidir.

**16 dekabr 1952** – Əməkdar artist, müğənni Zöhrə Abdulla qızı Abdullayeva (1952 – 28.5.2021) Şuşa şəhərində anadan olub.

**16 dekabr 1961** – Jurnalist, Azərbaycanın Milli Qəhrəmanı Salatın Əziz qızı Əsgərova (1961 – 9.1.1991) anadan olub.

**16 dekabr 1979** – Məşhur cazmen, bəstəkar, Əməkdar artist Vaqif Əziz oğlu Mustafazadə (16.3.1940 – 1979) vəfat edib. Caz-muğamın yaradıcısıdır. Beynəlxalq müsabiqə və festivalların qalibi və laureatı olub.

**16 dekabr 2011** – Opera müğənnisi, SSRİ Xalq artisti Firəngiz Yusif qızı Əhmədova (23.9.1928 – 2011) vəfat edib. 1951-1988-ci illərdə Akademik Opera və Balet Teatrının solisti olub.

### Dünya

**14 dekabr 1895** – Fransız şairi, poeziyada dadaizm və sürrealizmin banilərindən biri Pol Eluyar (Paul Eluard – Eugene Emile Paul Grindel; 1895 – 18.11.1952) anadan olub.

**14 dekabr 1898** – Rus kinorejissoru Yefim Lvoviç Dziqan (1898 – 31.12.1981) anadan olub. “Fətəli xan” (1947) Azərbaycan filminin rejissorudur.

**14 dekabr 1924** – Dünya şöhrətli hind aktyoru, rejissor, prodüser Rac Kapur (Raj Kapoor; 1924 – 2.6.1988) anadan olub. Filmləri: “Avara”, “Cənab 420” (aktyor), “Sanqam”, “Bobbi”, “Abdulla” (rejissor) və s.

**15 dekabr 1798** – İtalyan şairi Antonio Qvandanoli (Antonio Guadagnoli; 1798- 1858) anadan olub.

**15 dekabr 1859** – Esperanto beynəlxalq dilinin yaradıcısı, yəhudi əsilli Polşa linqvisti Lüdoviq Lazar Zamenhof (Ludwik Lejzer Zamenhof; 1859-1917) anadan olub.

**16 dekabr 1770** – Alman bəstəkarı, dirijor və pianoçu Lüdviq van Bethoven (Ludwig van Beethoven; 1770 – 26.3.1827) anadan olub.

**16 dekabr 1775** – İngilis realist ədəbiyyatında “qadın romanları”nın banisi Ceyn Ostin (Jane Austen; 1775–1817) anadan olub.

**16 dekabr 1866** – Rus rəssamı, təsviri sənətdə abstraksionizmin banilərindən Vasili Kandinski (1866–1944) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

№92 (1869)
15 dekabr 2021
www.medeniyyet.az

# Azərbaycan rəssamlarının əsərləri Avropa Şurasının platformasında

Strasburqda Avropa Şurasının Mədəniyyət, İrs və Landşaft üzrə Rəhbər Komitəsinin (CDCPP) 10-cu plenar sessiyası 8-9 dekabr tarixində hibrid formatda keçirilib.

Sessiyada Azərbaycanın da ratifikasiya etdiyi Avropa Mədəniyyət Konvensiyanın vacib üç istiqaməti üzrə aparılan işlər, bu sahədə əldə olunan tərəqqi və irəli sürülən təşəbbüslər dəyərləndirilib. Gündəlikdə qurumun 2022-2025-ci illər üzrə Strategiyası, müvafiq konvensiyaların icrasına dair vəziyyət və büronun vakant yerlərinə seçkilərin keçirilməsi kimi məsələlər yer alıb.

Dekabrın 9-da təşkilatın mədəniyyət sahəsində fəaliyyətlərinə həsr olunmuş paneldə Avropa Şurasının maliyyə dəstəyi ilə yaradılan "Free to Create, Create to be Free" rəqəmsal sərgi platformasının təqdimatı keçirilib. Təqdimatda platformaya Azərbaycan Respublikası tərəfindən Konvensiyanın ruhuna uyğun təqdim edilmiş əsərlərə görə ölkəmizə təşəkkür ifadə olunub, müəlliflərin yüksək bədii-estetik dəyərə malik əsərləri təqdir edilib.




Qeyd edək ki, sözügedən layihə Avropa İnsan Hüquqları Konvensiyasının 70 illik yubileyi münasibətilə Avropa Şurasının təşəbbüsü, CDCPP-nin dəstəyi ilə 2021-ci ildə yaradılıb. Şuraya üzv dövlətlərin hər biri layihəyə iki sənət əsəri təqdim edə bilər. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən müasir incəsənətimizin tanınmış nümayəndələri – Əməkdar rəssamlar Faiq Əhmədin "DNT" və Rəşad Mehdiyevin "Baxış" əsərləri seçilərək platformaya təqdim edilib.

Sərgi ilə daha ətraflı https://freetocreate.art/ rəqəmsal platformasında tanış olmaq olar.

Daha sonra tədbir işini mədəniyyət sahəsində müxtəlif regional təşkilatların və ekspertlərin təqdimatları ilə davam etdirib. Tədbirə ölkəmizdən "Free to Create, Create to be Free" layihəsinin koordinatoru, Mədəniyyət Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin sektor müdiri vəzifəsini icra edən Araz Bağırlı qatılıb.

# Nizami dünyasına açılan "Beş qapı"

## Tələbə aktyorların ifasında tamaşa

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi münasibətilə dekabrın 29-da Heydər Əliyev Sarayında "Beş qapı" tamaşası təqdim olunacaq.




Nizaminin hikmətlər xəzinəsi – "Xəmsə"nin motivləri əsasında hazırlanan tamaşa Mədəniyyət Nazirliyinin dəstəyi, Heydər Əliyev Sarayı və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) birgə təşkilatçılığı ilə nümayiş etdiriləcək.

Heydər Əliyev Sarayının "Nizami Gəncəvi İli" çərçivəsində son tədbiri olan tamaşanın ssenari müəllifi Şahin Musaoğlu, bəstəkarı Tamilla Əhədova, quruluşçu rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyevdir.

Layihənin məqsədi "Xəmsə"dəki poemalarda əks etdirilən hadisələrin beş qapı vasitəsilə açılması və Nizami irsinin təbliğidir. Hər qapı bir poemanın konsepsiyasına uyğun məzmun və ideyanı özündə birləşdirərək xoreoqrafik, pantomim elementlərdən ibarət təsvirlərlə canlandırılır.

Tamaşada ADMİU-nun aktyor sənəti ixtisası üzrə təhsil alan tələbələri çıxış edəcək.

# Rumıniyanın müstəqilliyimizi tanımasının 30 illiyi münasibətilə

## Mihay Emineskunun şeirlər kitabının təqdimatı

Dekabrın 10-da Azərbaycan Milli Xalça Muzeyində Rumıniyanın Azərbaycanın dövlət müstəqilliyini tanımasının 30 illiyi münasibətilə tədbir keçirilib.

Rumıniyanın Azərbaycandakı Səfirliyi və Milli Xalça Muzeyinin təşkilatçılığı ilə gerçəkləşən tədbirdə görkəmli rumın şairi Mihay Emineskunun Azərbaycan dilində nəşr olunmuş şeirlər kitabının təqdimatı keçirilib. Eyni zamanda tematik sərgiyə baxış olub.

Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare bildirib ki, ölkəsi Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 11-də tanıyıb: "30 il bundan öncə Azərbaycan çətin dövrlərini yaşayırdı. Rumıniya Türkiyədən sonra Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkədir. Azərbaycan bizim üçün qardaş ölkədir".

Diplomat bildirib ki, Mihay Emineskunun rumın dilində yazdığı poetik nümunələr ilk dəfə Azərbaycan dilinə tərcümə olunub.



Kitabı Rumıniyada universitet təhsili almış Jalə İsmayıl tərcümə edib. Kitabın orijinallığı təkcə onun rumın dilindən tərcüməsində deyil, həm də rumın rəssamlarının əsər haqqında çəkdiyi, onu necə qavradıqlarını göstərən rəsmləridir: "Kitabı yaxşı dərk etmək üçün şəkillər gözəl vasitədir. Bu layihədən sonra Bakıda Rumıniya rəssamlarının sərgisi də açılacaq".

Mihay Emineskunun şeirlər kitabının Azərbaycan dilində nəşrinin əlamətdar hadisə olduğunu deyən şair, tərcüməçi Səlim Babullaoğlu bildirib ki, dövlətlər arasında dostluq insanlar arasındakı münasibətə bənzəyir: "Rumıniya ilə 30 illik dostluğumuzu yaşadıq. Bu illər ərzində biz hər zaman Rumıniyanı yanımızda gördük. İnsanlar ölsə də, şeir əbədidir".

Kitabın Jalə İsmayılın sətri tərcümələri əsasında ərsəyə gəldiyini deyən Səlim Babullaoğlu bildirib ki, bu tərcümələrə poetik məzmun verib. Tərcümə zamanı şeirin metrik ölçüləri saxlanılıb. Səlim Babullaoğlu kitabdan bir şeir oxuyub.

Milli Xalça Muzeyin direktoru Şirin Məlikova bildirib ki, ölkələr arasında müxtəlif səviyyələrdə münasibətlərin yaranması sevindirici haldır. Muzeydə belə bir tədbirin keçirilməsi hər iki ölkə arasında olan dostluğa bir töhfədir: "Azərbaycanı tanımaq üçün Milli Xalça Muzeyi gözəl bir məkandır. Rumıniya səfirinin muzeyimizi ziyarət etməsi bizim ölkəyə göstərdiyi marağı əks etdirir".

Rumıniyada ali təhsil almış Jalə İsmayıl deyib: "Xarici ədəbiyyatla maraqlananlar çox güman ki, Mihay Emineskunun yaradıcılığı ilə tanışdır. O, rumın ədəbiyyatının "dan ulduzu", Avropanın sonuncu romantiki sayılır. Mənim sətri tərcümələrim belə qalsaydı, onu heç kəs oxumazdı. Səlim Babullaoğluna sətri tərcümələrimə poetik rəng qatdığı üçün təşəkkür edirəm".

İncəsənət və İrs Assosiasiyasının prezidenti Nikoleta Zagura bildirib ki, Rumıniyada da xalça mədəni irs sayılır. Bu layihəni Xalça Muzeyində keçirmək olduqca əlamətdardır: "İnanıram ki, muzeyin gizli bir guşəsində, nağıllarda olduğu kimi, "uçan xalça" saxlanılır və bu xalça ölkələr arasında mədəni körpü yaratmağa kömək edir".

Sonra iştirakçılar muzeylə tanış olublar.

# Nizaminin əsərləri türkmən dilində

## 73 ildən sonra yeni nəşr

"Nizami Gəncəvi İli" çərçivəsində daha bir nəşr layihəsi Azərbaycanın Türkmənistandakı Səfirliyi tərəfindən həyata keçirilib. Dahi Azərbaycan şairi və mütəfəkkirinin əsərlərindən ibarət kitab 73 ildən sonra yenidən türkmən dilində çap edilib. Səfirlikdə kitabın təqdimatı keçirilib.




Azərbaycanın Türkmənistandakı səfiri Həsən Zeynalov diqqətə çatdırıb ki, səfirliyin apardığı araşdırmalar nəticəsində 1948-ci ildə Nizami Gəncəvinin türkmən dilinə çevrilmiş seçilmiş əsərlərindən ibarət kitabın nəşr olunduğu müəyyən edilib. Həmin kitabda "Leyli və Məcnun" poeması, "Yeddi gözəl" poemasının "Bəhramın Fitnə ilə ova gedişi" və "Şahzadə rus qızı haqqında nağıl" hissələri, "Sirlər xəzinəsi" poemasının "Zülmkar padşah ilə həqiqətsevər adam haqqında hekayə" hissəsi, on beş qəzəl və üç şeir ("Oğluma nəsihət", "Az danışmağın gözəlliyi", "Gələcək nəslə xitab") toplanıb. Kitab Türkmənistanın Xalq yazıçısı Qara Seyitliyev tərəfindən hazırlanıb, həmvətənimiz Ruhi Əkbər Alıyevin redaktəsi və ön sözü ilə nəşr olunub.

Kitabın yeni nəşri AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylinin ön sözü ilə başlayır, eyni zamanda keçmişə ehtiram əlaməti olaraq Ruhi Alıyevin 1948-ci ildə yazdığı ön söz də nəşrdə saxlanılıb.




500 tirajla yenidən çap olunmuş kitab səfirlik tərəfindən Türkmənistanda fəaliyyət göstərən təhsil müəssisələrinə paylanılması üçün bu ölkənin Təhsil Nazirliyinə, eləcə də Türkmənistanın Mərkəzi Kitabxanasına və digər kitabxanalara təqdim edilib. Kitabın nüsxələri bu günlərdə Aşqabadda səfərdə olan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Baş katibi Düsen Kaseinova və Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevə də təqdim olunub, bir neçə nüsxəsi isə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna və Azərbaycan Milli Kitabxanasına göndərilib.

Qeyd edək ki, Azərbaycanın Türkmənistandakı Səfirliyi 2019-cu ildə TÜRKSOY-la birlikdə "İmadəddin Nəsimi dünya dillərində" kitabının nəşri zamanı şairin əsərlərinin türkmən dilinə tərcüməsində də iştirak edib. Səfirlik həmçinin XX əsrin 60-cı illərində türkmən dilində nəşr olunmuş və az sayda nüsxəsi qalmış "SeyitImadutdin Nesimi", "SeyitImadutdin Nesimi şıqırlar" və "Nesimi" kitablarını taparaq Azərbaycan Milli Kitabxanasına hədiyyə edib.

# Avropa Kino Akademiyasının mükafatları təqdim olunub

Avropa Kino Akademiyasının ən yaxşı ekran əsəri üçün mükafatı bu il bosniyalı rejissor Yasmila Jbaniçin "Haraya gedirsən, Aida?" filminə verilib.

Bu barədə akademiyanın saytında (europeanfilmacademy.org) məlumat verilib. Film 1995-ci ilin Srebrenitsa qətliamında oğullarını, ərlərini və atalarını itirmiş bosniyalı qadın və qızlara həsr olunub.

"Ən yaxşı aktrisa" nominasiyasında qalib həmin filmdə baş rolu ifa edən serbiyalı Yasna Curiçiç olub. Entoni Hopkins "Ata" filmindəki roluna görə "Ən yaxşı aktyor" nominasiyasında mükafat qazanıb.

Avropa Kino Akademiyası 1988-ci ildə Berlində köhnə qitənin aparıcı kino xadimlərinin təşəbbüsü ilə təsis olunub. Təsisçilərin ideyasına görə, Avropa Kino Akademiyasının mükafatı Amerika Kino Akademiyasının "Oskar"ına qarşılıq olmalı idi. Hərçənd ötən müddətdə Avropa kino akademiklərinin mükafatı amerikalı həmkarlarının "Oskar" ilə nüfuz yarışında elə də uğur qazanmayıb.



Yeri gəlmişkən, növbəti "Oskar" mükafatına "Ən yaxşı xarici film" nominasiyası üzrə müsabiqədə iştirak üçün ümumilikdə 93 ölkə müraciət edib. Onların arasında rusiyalı rejissor Kira Kovalenkonun "Yumruqlarını açaraq", ukraynalı rejissor Natali Vorojbitin "Pis yollar", özbək rejissor Elkin Tuyçiyevin "Fəridənin iki min mahnısı", Qırğızıstandan Artıqpay Suyundukovun "Şambala" və qazax rejissor Adılxan Erjanovun "Sarı pişik" filmləri də var. Azərbaycanı rejissor Rüfət Həsənovun "Daxildəki ada" filmi təmsil edir".

94-cü "Oskar" mükafatlandırma mərasiminin 2022-ci il martın 27-də keçirilməsi nəzərdə tutulub.

**Lalə AZƏRİ**

Lənkəran Dövlət Dram Teatrının direktoru Tofiq Heydərov və kollektivi iş yoldaşları, aktyor Əlibala Əsgərova oğlu

**Eminin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

# Yeni il ərəfəsində kitab sərgisi

15-21 dekabrda Bakı İdman Sarayında (Əl Oyunları Sarayı) Yeni il Kitab Sərgisi keçiriləcək.




Müstəqil nəşriyyatların və kitab mağazalarının qatılacağı sərgi günlərində təqdimatlar, müxtəlif mövzulara həsr olunmuş panellər, şeir və musiqi gecələri, yazar, aktyor, müğənni, rep və stendapçılarla görüşlər, uşaqlar üçün Şaxta baba və Qar qızın iştirakı ilə əyləncəli proqramlar da nəzərdə tutulur.

Satış-sərginin təşkilatçıları Azərbaycan Yazıçılar Birliyi və Mədəniyyət Nazirliyi yanında İctimai Şura, "Əli və Nino" mağazalar şəbəkəsi və "Qanun" nəşrlər evidir.

Xatırladaq ki, bu ilin 1-10 oktyabr tarixində eyni ünvanda Milli Kitab Sərgisi keçirilmişdi.

# "Soyuq əllər, isti ürək"

## Fəvvarələr meydanında ənənəvi yarmarka

Dekabrın 13-də paytaxtdakı Fəvvarələr meydanında ənənəvi "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası açılıb. "Nargis" Fondunun təşkil etdiyi yarmarkanın tərəfdaşları Bakı Şəhər İcra Hakimiyyəti, "Azərişıq" ASC, Bakı Abadlıq Xidməti, Azərbaycan Dövlət Reklam Agentliyi və digər qurumlardır. Xeyriyyə yarmarkası "PAŞA Holding", "Azercell", "Coca-Cola", "Boutique One", "Azərçay" və başqa şirkətlərin dəstəyi ilə keçirilir.



Açılış mərasiminə tanınmış sənətçilərin də qatıldığı xeyriyyə yarmarkası 2022-ci il yanvar ayının 15-dək (hər gün saat 11:00-dan 23:00-dək) davam edəcək. Hər il olduğu kimi, yarmarka sponsorlarının maliyyə dəstəyi və yarmarkada qurulan evlərin kirayəsindən toplanan bütün vəsait müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyat xərclərinin qarşılanmasına sərf ediləcək.

Xeyriyyə yarmarkasının qonaqları eksklüziv suvenirlər, hədiyyələr əldə edə, qeyri-adi, dadlı təamlar dada, isti içkilərlə soyuq qış günündə isinə, sevdikləri ilə birlikdə oyunlar oynaya və əsl Yeni il sehrini birlikdə kəşf edə bilərlər.

"Nargis" Fondu 2012-ci ildə "Nargis" jurnalının baş redaktoru Ülviyyə Mahmudova tərəfindən təsis edilib. Fond 2013-cü ildən etibarən Fəvvarələr meydanında "Soyuq əllər, isti ürək" qış xeyriyyə yarmarkasını təşkil edir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 2671
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.